# KAMİL İMAN



HARUN YƏHYA
(ADNAN OKTAR)

"Kamil" sifəti yetkin, nöqsansız, mükəmməl mənalarını ifadə edir. Bu kitabın mövzusu olan kamil iman da bir insanın çatdığı imani yetkinliyin və dərinliyin ən üstün, ən mükəmməl dərəcəsini bildirir.

Hər bir insan bu əxlaqı hədəf almaqla və buna cəhd göstərməklə məsuldur. Bu mövzuda insanların önünə hər hansı bir sərhəd qoyulmamışdır. Allah`a qəlbən iman edən, Ona səmimiyyətlə yaxınlaşmağa çalışan hər mömin bu əxlaqı qazana bilər və imani yetkinliyə çata bilər.

Bu kitabın yazılmasındakı məqsədlərindən biri də hər işdə Allah`a yönəlməyin, daim Allah`ın razılığını və dostluğunu qazanmaq üçün qeyd-şərtsiz gözəl bir əxlaq göstərməyin nəticəsində yaranan imani yetkinliyi, kamil imanı təyin etmək, dinə səmimiyyətlə sarılan hər insanın bu üstün əxlaqı yaşamasına vəsilə olmaqdır.

Bu kitabın yazılmasındakı başqa məqsəd isə dərin Allah qorxusuna sahib olduqdan və səmimiyyətlə yaxınlaşdıqdan sonra peyğəmbər əxlaqına çatmağın qarşısında heç bir maneə olmadığını bildirməkdir.



**MÜƏLLİF HAQQINDA:** Harun Yəhya imzasından istifadə edən Adnan Oktar 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah'ın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allah'ın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda tərif edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.


بسم الله الرحمن الرحيم
الله
رسول
محمد





# KAMİL İMAN

Harun Yəhya (Adnan Oktar)



## YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s.ə.v) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allah'ın son kitabı və son sözü, Peyğəmbərimizin (s.ə.v) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.



Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah'ın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq,

uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allah'ın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allah'ın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# OXUCUYA

- Bu kitabda və digər fəaliyyətlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə fəlsəfənin əsasını təşkil etməsidir. Yaradılışı və dolayısilə Allah'ın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Ona görə bu nəzəriyyənin yalan olduğunu insanlara göstərmək çox mühüm imani vəzifədir. Bu mühüm xidmətin bütün insanlara çatdırılması isə vacibdir. Bəzi oxucularımızın bəlkə bircə kitabımızı da oxuma imkanı yoxdur. Bu səbəbdən hər kitabımızda bu mövzuya xülasə şəklində də olsa bir bölmə ayrılmışdır.
- Kitabların məzmunu ilə bağlı digər cəhəti də nəzərə çatdırmaq lazımdır. Müəllifin bütün kitablarında imani mövzular, Quran ayələri işığında izah edilir, insanlar Allah'ın ayələrini öyrənməyə və yaşamağa dəvət olunurlar. Allah'ın ayələri ilə bağlı bütün mövzular oxuyanın ağlında heç bir şübhə və ya sual doğurmayacaq şəkildə açıqlanır.
- Buradakı izahlarda istifadə edilən səmimi, sadə və axıcı üslub isə kitabların hər kəs tərəfindən asanlıqla başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsdə oxunan kitablar" ifadəsinə tamamilə uyğun gəlir. Dini qətiyyətlə rədd edən insanlar belə bu kitablarda izah edilən həqiqətlərdən təsirlənir və izah edilənlərin doğruluğunu inkar etmirlər.
- Bu kitab və müəllifin digər əsərləri oxucular tərəfindən fərdi şəkildə olduğu kimi, qarşılıqlı söhbət mühitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun kitabları birlikdə oxumaları, mövzu ilə bağlı öz fikir və təcrübələrini bir-birləri ilə paylaşmaları baxımından faydalı olar.
- Bununla yanaşı sadəcə Allah rizası üçün yazılmış bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük xidmət olar. Çünki müəllifin bütün kitablarında sübut və inandırma çox güclüdür. Bu səbəbdən dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasına sövq etməkdir.
- Kitabların arxasına müəllifin digər əsərlərinin təqdimatının əlavə edilməsinin isə mühüm səbəbləri var. Bu sayədə kitabı əlinə alan şəxs yuxarıda bəhs etdiyimiz xüsusiyyətləri daşıyan və oxumaqdan zövq aldığını ümid etdiyimiz bu kitabla eyni vəsflərə malik olan daha bir çox əsər olduğunu görəcəkdir. İmani və siyasi mövzularda faydalanacağı zəngin mənbə toplusunun mövcud olduğuna şahid olacaqdır.
- Bu əsərlərdə digər bəzi əsərlərdə görünən, müəllifin şəxsi qənaətlərinə, şübhəli mənbələrə əsaslanan izahlara, müqəddəs şeylərə qarşı ədəbə və hörmətə diqqət verilməyən üslublara, narahatlıq verən şübhəli və ümidsizliyə sürükləyən izahlara rast gələ bilməzsiniz.

Bu kitabda istifadə edilən ayələr Ə. Musayevin tərcümə etdiyi
Qurani-kərim kitabından götürülmüşdür.

www.harunyahya.org - www.harunyahya.net - www.harunyahya.az

# İÇİNDƏKİLƏR


Giriş,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,8

Kamil iman nədir?,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,11

Kamil iman sahibinin Allah inancı ,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,14

Kamil iman sahibinin ibadətləri,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,20

Kamil iman sahibinin qədərə təslimiyyəti ,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,23

Kamil iman sahibinin dünya həyatına baxışı ,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,28

Kamil iman sahibinin ölümə baxışı ,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,32

Kamil iman sahibinin axirət inancı ,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,35

Kamil imanın nəsib etdiyi üstün əxlaq,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,38

Kamil iman sahiblərinin gözəl həyatı ,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,71

Quranda kamil iman nümunələri ,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,74

Nəticə ,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,88

Quranda kamil iman sahibləri,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,90

Kamil iman sahibi olan mömin,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,93

Əlavə bölmə: Təkamül yalanı ,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,,102

# GİRİŞ

Allah Quranı insanlara yol göstərici olaraq endirmişdir. Quran əxlaqının tam mənada yaşanması yalnız ayələrin hamısının birdən tətbiq olunması ilə mümkündür.

Bu əhəmiyyətli həqiqəti dərk edə bilməyən bəzi insanlar Quranın bəzi hökmlərini yerinə yetirməyə diqqət göstərərkən, bəzi hökmlərinə lazım olan əhəmiyyəti verməzlər. Söz gəlişi, bəzi ibadətləri dəqiqliklə yerinə yetirərkən Allah'ın Quranda təfsilatı ilə verdiyi gözəl əxlaqı yaşamaq üçün eyni dərəcədə diqqətli davranmazlar.

Bu insanlar: "Mən onsuz da Allah'a inanıram", - deməyin kifayət edəcəyini zənn edirlər. Halbuki, Allah Quranda **"İnsanlar elə güman edirlər ki, təkcə: "İman gətirdik!"– demələri ilə onlardan əl çəkiləcək və onlar imtahan edilməyəcəklər?"** (Ənkəbut surəsi, 2) ayəsi ilə insanları bu mövzuda xəbərdar etmişdir. Bu ayədən aydın olur ki, bir insan: "Mən iman etdim", - dedikdən sonra Allah'ı razı etmək üçün yaşamalı, Onun xoş gördüyü əxlaqı hərəkəti ilə də göstərməlidir. Qarşısına çıxan hər cür vəziyyətdə Allah'ın məmnun olacağı gözəl əxlaqı yaşamalı, əksinə bir rəftar göstərməkdən də şiddətlə çəkinməlidir. Əsl dindar olmağın yolu məhz budur. Adamın səmimiyyəti Allah'ın gözəl gördüyü əxlaqı həyata keçirmək səyi ilə müəyyən olunur.

Bu mövzuda xalq arasında olduqca məşhur yanlış bir fikir vardır.

Bir çox insan gözəl əxlaq və təqvanın ancaq Quranda nümunə olaraq göstərilən peyğəmbərlər, əshabələr kimi üstün əxlaqlı insanlar tərəfindən yaşana biləcəyinə inanır. Halbuki, Allah onların əxlaq nümunələrini digər insanların da həmin rəftar və davranışları, həmin əxlaqı göstərmələri üçün vermiş və bütün insanları Quranda bildirilən hökmlərə uymağa, İslam əxlaqını nöqsansız olaraq yaşamağa dəvət etmişdir.

İnsan vicdanının səsini dinləyib səmimiyyətdən uzaqlaşmadıqca Quran əxlaqını Quranda nümunə göstərilən saleh möminlər kimi ən gözəl şəkildə yaşaya bilər.

Allah bir ayədə belə bildirir:

**Sonra kitabı qullarımız içərisindən seçdiklərimizə miras etdik. Onlardan kimisi özünə zülm edər, kimisi orta yol tutar, kimisi də Allah'ın izni ilə yaxşı işlərdə öndə gedər. Böyük lütf də budur. (Fatir surəsi, 32)**

Ayədə açıqlandığı kimi, bəzi insanlar Allah'ın çağırdığı doğru yola uymayıb zərərə uğrayarlar, ancaq bəziləri də yaxşı işlərdə yarışıb önə keçər və qurtulanlardan olmağı ümid edərlər. Qüvvətli imana sahib olan hər mömin gücünün yetdiyi ən üstün əxlaq səviyyəsinə çatmağa çalışar. Çünki Allah'ın sevgisini və məmnuniyyətini ancaq bu şəkildə qazanacağını bilir, onun yaranmasının əsl məqsədi də budur. Rəbbimizi haqqı ilə təqdir edib Onun sevgisini, rizasını və cənnətini qazana bilmək...

Hər bir insan bu əxlaqı hədəf almaqla və buna cəhd göstərməklə məsuldur. Bu mövzuda insanların önünə hər hansı bir sərhəd qoyulmamışdır. Allah'a qəlbən iman edən, Ona səmimiyyətlə yaxınlaşmağa çalışan hər mömin bu əxlaqı qazana bilər və imani yetkinliyə çata bilər.

Bu kitabın yazılmasındakı məqsədlərindən biri də hər işdə Allah'a yönəlməyin, daim Allah'ın razılığını və dostluğunu qazan-

maq üçün qeyd-şərtsiz gözəl bir əxlaq göstərməyin nəticəsində yaranan imani yetkinliyi, kamil imanı təyin etmək, dinə səmimiyyətlə sarılan hər insanın bu üstün əxlaqı yaşamasına vəsilə olmaqdır.

Bu kitabın yazılmasındakı başqa məqsəd isə dərin Allah qorxusuna sahib olduqdan və səmimiyyətlə yaxınlaşdıqdan sonra peyğəmbər əxlaqına çatmağın qarşısında heç bir maneə olmadığını bildirməkdir. Ən əhəmiyyətlisi isə Allah qatında qəbul olunan davranış formasının axirət üçün ciddi bir səy göstərmək olduğunu vurğulamaqdır. Allah bununla əlaqədar olaraq bir ayədə belə buyurmuşdur:

**Kim də axirəti istəsə, mömin olaraq bütün qəlbi ilə ona can atsa, onların səyi məmnuniyyətlə qəbul olunar. (İsra surəsi, 19)**

# KAMİL İMAN NƏDİR?

**Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər. (Muminun surəsi, 61)**

"Kamil" sifəti yetkin, nöqsansız, mükəmməl mənalarını ifadə edir. Bu kitabın mövzusu olan kamil iman da bir insanın çatdığı imani yetkinliyin və dərinliyin ən üstün, ən mükəmməl dərəcəsini bildirir. Yaxşı, bir insanın imanının yetkinləşməsi, mükəmməlləşməsi necə reallaşır?

Allah'a iman etmək insanın Allah'ın hər şeyin yeganə yaradıcısı, yeganə sahibi və yeganə hakimi olduğunu qavramasıdır. Hər insanın Ona möhtac olduğunu bilib, Allah'ın heç bir şeyə ehtiyacı olmadığını və hər işi bir qədər (tale) ilə yaratdığını anlayaraq həyatın hər anında Ona təslim olmasıdır. Allah'a təslim olmaq isə Allah'dan çox qorxmaqla və Ona hər şeydən və hər kəsdən çox bağlanıb Onu çox sevməklə mümkün olur. Allah'a əsl mənada təslim olan bir insan özünə yalnız Allah'ı dost və vəli edir. Həyatı boyunca qarşısına çıxan hər hadisənin Allah'ın izni ilə reallaşdığını və bütün bunların xüsusi hikmətlərlə yaradıldığını bilir. Bu səbəblə, nə olursa-olsun, təslimiyyətli rəftarından dönmədən hər zaman Allah'a qarşı boyun əyici, şükür edici və itaətli davranır.

Kamil mənada bir imana sahib olmaq üçün Allah'ın Özünü tanıtdığı və qullarından istədiklərini bildirdiyi Qurana nöqsansız riayət etmək lazımdır. Bu səbəblə, mömin həyatının sonuna qədər Allah'ın

bütün əmr və qadağaları mövzusunda son dərəcə diqqətli davranır. Allah'ın bəyəndiyi əxlaq modelini də usanmadan ölənə qədər səbirlə tətbiq edir. Kamil iman sahibi olan bir möminin göstərdiyi gözəl əxlaqda səbir olduqca əhəmiyyətli və təyinedici bir xüsusiyyətdir. Çünki kamil iman sahibi bu xüsusiyyəti ilə insanlar arasında önə çıxır. Daha əvvəl də bəhs etdiyimiz kimi, Quranda bu şəkildə Allah'ın rizasını qazanmaq məqsədilə yaxşı işlərdə öndə gedənlərdən (Fatir surəsi, 32) danışılır. Ancaq Quranda **"İnsanlardan eləsi də vardır ki, Allah'a şübhə ilə ibadət edir..."** (Həcc surəsi, 11) ayəsində ifadə edildiyi kimi, imanı gərəyi kimi yaşamayanlardan da bəhs edilir.

Kamil imanın fərqi də bu məqamda ortaya çıxır. İmanı tam olaraq mənimsəyə bilməyənlər bir ucundan dinə yönələrkən kamil iman sahibləri Quranı həyatlarının hər anında özlərinə rəhbər edərlər. Eyni şəkildə, bu səmimiyyətsiz insanların imanları müəyyən şərtlərə bağlı ikən, kamil iman sahibləri qeyd-şərtsiz iman edərlər. Şərtli iman edənlər ancaq nemət içində olduqlarında və bütün hadisələr onların istədiyi kimi baş verdiyində dinə sadiq qalar və gözəl əxlaqı təqlid edə bilərlər. Ancaq nemətlərdə bir azalma olduğunda, ya da hər hansı bir çətinliklə qarşılaşdıqlarında asanlıqla din əxlaqından uzaqlaşa bilər və sədaqətlərini poza bilərlər. Kamil iman sahibləri isə Allah'a olan inanclarında və sədaqətlərində daimidirlər. Bunun əsl səbəbi onların qəti bir məlumatla iman etmələridir. Qəti bir məlumatla iman etmək adamın Allah'ın və axirətin varlığına ağlı, qəlbi və vicdanı ilə qəti olaraq qərara gəlməsidir. Qurandakı **"O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar"** (Bəqərə surəsi, 4) ayəsi ilə də iman edənlərin bu xüsusiyyəti vurğulanır.

Kamil imanın fərqliliyi özünü tamamilə vicdanın səsini dinləməklə müəyyən edir. Vicdan hər zaman Allah'ın əmrləri istiqamətində adamı həmişə doğruya dəvət edən səsdir. Kamil iman sa-

hibi hər vəziyyətdə vicdanının səsini dinləyir. Bu da onun daim Qurana uyğun və Allah'ın məmnun olacağı əxlaq və rəftarları ortaya qoymasını təmin edir.

Qarşısına çıxan alternativlərdən ən doğrusunu, Allah'ın bəyənəcəyini ümid etdiyi rəftarı seçir. Heç bir zaman aza qane olmur. Gözəl olan rəftarı tətbiq edərkən önünə çıxan çətinliklər qarşısında ümidsizliyə qapılmır. Nəfsinin istək və həvəslərinə məğlub olaraq doğru və gözəl olandan vaz keçmir.

Bu mövzunu gündəlik həyatdan bir misal verərək açıqlaya bilərik: böyük bir fabrikdə yanğın baş verdiyini düşünək. Belə bir vəziyyətdə fabrik sahibinin qarşısına bir çox alternativ çıxır: fabrikin yanmasının qarşısını almaq üçün içəridə qalıb işçiləri də səfərbər edərək yanğını söndürməyə çalışa bilər; canını qurtarmaq üçün digər işçilərə xəbər vermədən fabriki tərk edə bilər; yanğın baş verdiyini eşitdirərək bütün fabrik işçilərinin dərhal çölə çıxmasını təmin edib, bir tərəfdən də vəziyyətdən çıxmaq üçün kömək istəyə bilər.

Bu alternativlərin hamısı da müəyyən dərəcəyə qədər məqbul görünə bilər. Vicdan insana içində olduğu şəraitə uyğun, bunların arasından hansının, həqiqətən də, ən doğru və ən ağıllı qərar, Allah'ın rizasını qazanmağa ən uyğun davranış şəkli olduğunu göstərər. Kamil iman da vicdanın göstərdiyi doğru rəftar və davranışı nəfsinə heç möhlət vermədən, qeyd-şərtsiz və içində heç bir büdrəmə və peşmanlıq duymadan tətbiq edən adamın imanıdır.

Peyğəmbərimiz (s.ə.v) bir hədisində Allah'a iman ilə əlaqədar olaraq belə buyurmuşdur:

*"Allah'dan başqa ilah yoxdur, O, təkdir, heç bir şəriki yoxdur. Göylərin və yerin mülkü Onundur. Bütün həmdlər Ona aiddir, O, hər şeyə qadirdir"... Daşlanmış şeytandan Allah'a sığın. (Kütüb-i Sitte, Muhtasarı Tercüme ve Şerhi, Prof. Dr. İbrahim Canan, 16. cilt, s. 311)*

# KAMİL İMAN SAHİBİNİN ALLAH İNANCI

**Allah'dan qorxub çəkinərlər**

**...Və Onun qorxusundan tir-tir əsirlər. (Ənbiya surəsi, 28)**

Allah'ın böyüklüyünü, gücünü və sonsuz ağlını qavrayan kamil iman sahibləri Rəbbimizə qarşı hörmət dolu bir qorxu duyarlar. Allah'ın Quranda xəbər verdiyi **"Nə qədər bacarırsınızsa Allah'dan qorxun..."** (Təğabun surəsi, 16) əmrinə itaət edərək bu qorxularına sərhəd qoymazlar. Qarşılaşdıqları hər hadisə, ətraflarında gördükləri hər şey Allah'ın böyüklüyünü təqdir etmələrinə, imanlarının artmasına, bu səbəbdən də qorxularının dərinləşməsinə vəsilə olar.

Belə dərin bir qorxu güclü şəkildə çəkinməni də özü ilə gətirir. Bu çəkinmənin şiddəti insanın Allah'ın bütün əmr və tövsiyələrini diqqətlə tətbiq etməkdə və Onun məhrum etdiyi şeylərdən də üz çevirməsində özünü müəyyən edir. Bir ayədə kamil iman sahiblərinin bu rəftarı belə bildirilir:

**Onlar özlərinin fövqündə olan Rəbbindən qorxur və onlara əmr olunanları yerinə yetirirlər. (Nəhl surəsi, 50)**

Allah bir ayədə insanların qavrayışını dərinləşdirəcək bir nümunə verərək razı olacağı qorxuya belə işarə etmişdir:

**Əgər Biz bu Quranı dağa nazil etsəydik, sən onun Allah'ın qorxusundan boyun əyib parça-parça olduğunu görərdin. Biz bu misalları insanlar üçün çəkirik ki, bəlkə, fikirləşələr. (Həşr surəsi, 21)**

Ayədə işarə edildiyi kimi, qəlbən iman edənlərin Allah qorxusu da bu cür şiddətli və dərindir.

Kamil iman sahiblərinin Allah qorxusu son dərəcə güclüdür, lakin bu, cahiliyyənin yaşadığı batil qorxular kimi çətin bir qorxu deyil. Bu qorxu mömini onu yaradan və yaşadan Allah'a bağlayan, dərin bir hörmət və dərin bir sevgiyə əsaslanan bir qorxudur. İnsana həyat verən, şövq, həyəcan və əzm verən bir qorxudur. Eyni zamanda da mömini Allah'ın razı olmayacağı rəftardan çəkindirən, xeyir istiqamətində hərəkətə gətirən, Allah'ın bəyəndiyi əxlaqı qazandıran və bunun nəticəsində də mənəvi həzz verən bir duyğudur. Bu qorxu ancaq Allah'a duyulan dərin sevgi ilə bir yerdə yaşana bilər. Kamil iman sahibləri Allah'ı nə qədər çox sevirlərsə, Ondan bir o qədər də çox qorxurlar. Bu iki anlayış hər an bir tarazlıq içərisində yaşanır. Bunlar kamil iman sahiblərinin imanlarının ən əhəmiyyətli göstəricilərindəndir.

Kamil iman sahiblərinin Allah'dan içləri titrəyəcək dərəcədə güclü və hörmət dolu bir qorxu ilə qorxmalarına vəsilə olan isə Allah'ı təqdir edə bilmələridir. Allah'ın Qəhhar (qəhr edən, hər şeyə, hər istədiyini edən, qalib və hakim), Müəzzib (əzablandıran), Müntəqim (intiqam alan), Saiq (cəhənnəmə sürən), Müzil (zillətə salan, xor və alçaq edən) sifətlərini bilən möminlər Allah'ın həm dünyada, həm də axirətdə dilədiyi an, dilədiyi kimsəyə, dilədiyi əzabı verə biləcəyini bilirlər. Bu əzabdan ancaq lazımınca qorxub-çəkinənlərin xilas ola biləcəyinin də şüurundadırlar. Buna görə də başqa heç bir şeydən deyil, yalnız bütün gücün sahibi olan Allah'dan qorxarlar.

## Allah'ı hər kəsdən və hər şeydən çox sevərlər

**... "Allah bizə yetər. O, nə gözəl qoruyandır!"– dedilər. (Ali-İmran surəsi, 173)**

Kamil iman sahiblərinin Allah qorxuları kimi, Allah'a olan sevgiləri də çox güclüdür. Özlərini yoxdan var edənin, saysız nemətləri xidmətlərinə verənin, onları hər an qoruyanın Allah olduğunu bilirlər. Bütün varlıqların ancaq Onun izni ilə həyatda var olduqlarına və yenə də Onun diləməsi ilə bir gün mütləq yox olacaqlarına, baqi olanın tək Allah olduğuna iman edərlər. Bu həqiqəti qavradıqları üçün bütün sevgilərini onları yaradan və yeganə sahibləri olan Allah'a yönəldərlər. Belə ki, Allah'ı gördükləri, bildikləri, qavradıqları hər şeydən və hər kəsdən çox sevərlər.

Quranda xəbər verilən **"...O, nə gözəl himayədar, nə gözəl yardımçıdır!"** (Ənfal surəsi, 40) ayəsində də bildirildiyi kimi, Allah'dan daha gözəl bir vəli və köməkçi ola bilməyəcəyinin şüurundadırlar. Üstün bir imana sahib olan hz. İbrahimin Quranda xəbər verilən bir duası belədir:

**O Rəbb ki, məni yaratmış və məni doğru yola yönəltmişdir; O Rəbb ki, məni yedirdir və içirdir; O Rəbb ki, xəstələndiyim zaman mənə şəfa verir; O Rəbb ki, məni öldürəcək, sonra dirildəcəkdir; O Rəbb ki, haqq-hesab günü xətalarımı bağışlayacağını Ondan umuram. Ey Rəbbim! Mənə hikmət ver və məni əməlisalehlərə qovuşdur! (Şüəra surəsi, 78-83)**

Göründüyü kimi, hz. İbrahim də ona can verənin, yer üzündəki hər hadisəni idarə edənin, ruzini verənin, xəstəliyi və ona şəfa olacaq imkanı yaradanın və yer üzünün yeganə hakiminin Allah olduğunu çox yaxşı bilir. Bu səbəblə də Allah'a könüldən bir sevgi ilə bağlanmışdır. Kamil iman sahiblərinin nümunə götürdükləri Allah sevgisi məhz budur.

Kamil iman sahibləri yaradılmış digər bütün varlıqları da, Allah'a olan sevgiləri və bağlılıqları ilə doğru mütənasib olaraq sevirlər. İnsanlara olan sevgilərindəki ölçü onların Allah'ın əmr etdiyi əxlaqı üzərilərində nə dərəcə daşıdıqlarından asılıdır. Allah'ın əmr və qa-

dağalarına diqqət edən, Onun əmr etdiyi əxlaqı ən gözəl şəkildə yaşayanlara qarşı dərin sevgi bəsləyərlər. Bu insanları sevmələrinin əsl səbəbi onların da Allah'ı çox sevən, yalnız Allah'ı dost və vəli edən insanlar olmalarıdır.

Əsl iman möminlərə dünyada gördükləri hər cür gözəlliyin, ağılın və bütün qabiliyyətin Allah'a aid olduğunu dərk etdirər. Gözəl, ağıllı, ya da qabiliyyətli bir insanla qarşılaşan möminlər onun bu xüsusiyyətlərindən çox zövq alarlar, amma bütün bunların əsl qaynağının, əsl yaradıcısının Allah olduğunu da unutmazlar. Bu səbəblə, bu xüsusiyyətlərdən aldıqları zövq insanlara qarşı müstəqil bir sevgi meydana gətirməz. Əksinə, ürəklərində yenə Allah'a qarşı dərin bir hörmət və dərin bir sevgi meydana gələr.

Dərin imana sahib olmayanların isə Allah sevgisində zəiflik olduğu görünür. Əslində, bu insanlar özlərini yaradan və həyat verənin, hər yerdə onları qoruyan, saysız nemətləri onlara bağışlayanın Allah olduğunu bilirlər. Ancaq həyatlarının böyük bir hissəsində bu həqiqəti unudur və ya nəzərə almadan yaşayırlar. Allah'ın yaratdığı varlıqların Allah'dan müstəqil bir gücə sahib olduqlarını zənn edirlər. Bu səbəblə də bu varlıqlara Allah'dan müstəqil bir sevgi duyurlar. Quranda bu insanların vəziyyəti belə xəbər verilir:

**İnsanlardan elələri də vardır ki, Allah'dan qeyrilərini (Ona) tay tutur, onları da Allah'ı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allah'a olan sevgisi daha güclüdür... (Bəqərə surəsi, 165)**

Bir başqa ayədə kamil iman sahibləri ilə bu insanlar arasındakı fərq belə açıqlanmışdır:

**Allah iman gətirənlərin himayədarıdır, onları zülmətlərdən nura çıxarır. Kafirlərin dostları isə tağutlardır, onları nurdan zülmətə salarlar. Onlar od sakinləridirlər və orada əbədi qalacaqlar. (Bəqərə surəsi, 257)**

## Allah'dan başqa ilah qəbul etməzlər

**... Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar... (Nur surəsi, 55)**

Kamil iman sahiblərinin imanları ağıl və vicdana əsaslanan möhkəm bir imandır. Bu səbəblə, onlar ayələrdə ifadə edildiyi kimi, heç bir şübhəyə qapılmadan iman edərlər. Allah'ı bütün ucalığı və böyüklüyü ilə qavradıqları üçün Ona bənzər başqa bir ilah olmadığını qəbul edərlər. İnananların yol göstəricisi olan Quranda bu həqiqət belə xəbər verilir:

**Allah, Ondan başqa ilah yoxdur, (əbədi) yaşayandır, (bütün yaratdıqlarının) Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, (məxluqatın) gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, ucadır, uludur. (Bəqərə surəsi, 255)**

Bununla bərabər, insanlardan bəziləri də Allah'ın varlığına iman etməklə bərabər, bəzi dünyəvi varlıqların da güc sahibi olduğuna inanır və bunları özlərinə ilah olaraq qəbul edirlər. Ancaq bu varlıqlardan bəhs edərkən ağıla yalnız keçmiş əsrlərdəki bütpərəstlərin tapındıqları daşdan, taxtadan oyma heykəllər, ya da primitiv qəbilələrin, batil dinlərin ortaya atdığı saxta ilahlar gəlməməlidir. Dövrümüzdəki cəmiyyətdə insanların özlərinə ilah etdikləri adı qoyulmamış maddi-mənəvi bir çox şey vardır.

Bir insanın Allah'dan başqa hər hansı bir varlığı məmnun etməyə çalışması, bu varlığın ona kömək etməyə güc yetirə biləcəyini zənn etməsi, həyatını o varlığın istəkləri istiqamətində tənzimləməsi onu ilah etməsi kimi təyin oluna bilər. Məsələn, bəzi insanlar pul,

gözəllik, etibar, mövqe əldə edə bilməyi, ya da öz nəfslərinin istəklərini yerinə yetirməyi həyatlarının yeganə məqsədi halına gətirirlər. Bu insanlar əsl məqsədlərini, yəni Allah'ın rizasını və cənnətini qazanmağı unudurlar. Məhz bu insanlar Allah'dan başqa ilah qəbul edən kəslərdir.

Kamil iman sahiblərinin fərqi də bu mərhələdə ortaya çıxır. Çünki onlar bu insanların tam əksinə, dilləri ilə söylədikləri kimi, ürəkləri ilə də Allah'dan başqa bir ilah olmadığını təsdiq edir və bütün həyatları ilə də bunu isbat edirlər. Onlar dini yalnız Allah'a məxsus edərək iman edir və Ondan başqa bir ilah qəbul etmirlər. Allah bu səmimi qullarının xüsusiyyətlərini Quranda belə xəbər verir:

> **Tövbə edənlər, (əməllərini) islah edənlər, Allah'dan möhkəm yapışanlar və öz dinlərini Allah'a məxsus edənlər istisnadır. Bunlar möminlərlə birgə olacaqlar. Möminlərə isə Allah böyük mükafat verəcəkdir. (Nisa surəsi, 146)**

# KAMİL İMAN SAHİBİNİN İBADƏTLƏRİ

Kamil iman sahibi olan bir insan ibadətlərinə göstərdiyi dəqiqliklə özünü müəyyən edir. Allah'ın fərz qıldığı beş vaxt namaz, oruc, dəstəmaz ibadətlərini həyatı boyunca (sağlamlıq şərtləri əlverişli olduğu müddətdə) şövqlə davam etdirir. Allah saleh müsəlmanların ibadət şövqünü bir çox ayəsi ilə xəbər vermişdir:

**O kəslər ki, Rəbbinin üzünü diləyərək səbir edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir və pisliyi yaxşılıqla dəf edirlər. Onlar üçün axirət yurdu – əməlisaleh ataları, zövcələri və övladları ilə birlikdə daxil olacaqları Ədn bağları hazırlanmışdır... (Rəd surəsi, 22-23)**

**O kəslərə ki, Allah anıldığı zaman qəlbi qorxuya düşər, başına gələnə səbir edər, namaz qılar və onlara verdiyimiz ruzidən (Allah yolunda) xərcləyərlər. (Həcc surəsi, 35)**

## Beş vaxt namazın əhəmiyyəti

İmandan sonra gələn ən əhəmiyyətli ibadətlərdən olan namaz möminlərə həyatları boyunca davam etdirmələri əmr edilən, vaxtları təyin olunmuş bir ibadətdir.

İnsan unutmağa və qəflətə düşməyə meyilli bir varlıqdır. İradəsindən istifadə etməyib gündəlik hadisələrin axışına qapılsa, əsl

diqqətini verməsi və ağlında tutması lazım olan mövzulardan uzaqlaşar. Allah'ın hər tərəfdən onu sarıb-bürüdüyünü, hər an onu izlədiyini, eşitdiyini, etdiyi hər şeyin hesabını Allah'a verəcəyini, ölümü, cənnətin və cəhənnəmin varlığını, qədərin (taleyin) xaricində heç bir hadisənin meydana gəlməyəcəyini, qarşılaşdığı hər şeydə, hər hadisədə bir xeyir olduğunu unudar. Qəflətə düşərək həyatının əsl məqsədini xatirindən çıxara bilər.

Gündə beş vaxt qılınan namaz isə bu unutqanlıq və qəfləti yox edər, möminin şüurunu və iradəsini canlandırar. Möminin daim Allah'a yönəlməsini təmin edər və yaradıcımızın əmrləri istiqamətində həyat sürməsinə kömək edər. Namaz qılmaq üçün Allah'ın hüzurunda dayanan kamil iman sahibi olan mömin Allah'la güclü bir mənəvi əlaqə qurar. Namazın insana Allah'ı xatırlatdığı və insanı hər cür pislikdən saxladığı bir ayədə belə bildirilir:

> **Kitabdan sənə vəhy olunanları oxuyub namaz qıl. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir. Allah'ı yada salmaq isə (ibadətlərin) ən əzəmətlisidir. Allah nə etdiklərinizi bilir. (Ənkəbut surəsi, 45)**

Namaz ibadəti başda peyğəmbərlər olmaqla, bütün iman edənlərə fərz qılınmış bir ibadətdir. Tarix boyunca insanlara göndərilmiş peyğəmbərlər qövmlərinə Allah'ın fərz etdiyi bu ibadəti təbliğ etmişlər, özləri də həyatları boyunca bu ibadəti ən gözəl və ən doğru şəkildə tətbiq edərək bütün möminlərə nümunə olmuşlar. Bu istiqaməti ilə namaz Allah'ın elçilərinin qövmlərinə etdikləri feili bir təbliğ şəklidir.

Quranda peyğəmbərlərə namaz qılmalarının əmr edilməsi, onların bu ibadətə verdikləri əhəmiyyət, bu ibadəti yerinə yetirməkdə və qorumaqda göstərdikləri qətiyyət, qövmlərinə namaz qılmağı əmr etmələri ilə əlaqədar bir çox ayə vardır.

- Bir ayədə hz. İbrahim barədə belə bildirilir:

**Ey Rəbbim! Məni də, nəslimdən olanları da namaz qılan et! Ey Rəbbimiz! Duamı qəbul elə! (İbrahim surəsi, 40)**

- Hz. İsmayıl barədə Quranda belə buyurulur:

**Kitabda İsmaili də xatırla! Həqiqətən, o, öz vədinə sadiq idi. O, bir elçi və peyğəmbər idi. O, öz ailəsinə namaz qılmağı, zəkat verməyi əmr edirdi. O, Rəbbinin rizasını qazanmışdı. (Məryəm surəsi, 54-55)**

- Başqa bir ayədə Allah hz. Musaya belə bildirir:

**Həqiqətən, Mən Allah'am. Məndən başqa heç bir ilah yoxdur. Mənə ibadət et və Məni xatırlamaq üçün namaz qıl! (Taha surəsi, 14)**

Mömin qadınlara nümunə olaraq göstərilən hz. Məryəmə də namaz qılması əmr edilmişdir:

**Ey Məryəm! Rəbbinə itaət et, səcdə et və rukuya gedənlərlə birlikdə rukuya get!" (Ali-İmran surəsi, 43)**

Quranda Allah'ın sözü olaraq xarakterizə edilən hz. İsa da eyni əmri almışdır:

**(Körpə dil açıb) dedi: "Həqiqətən də, mən Allah'ın quluyam! O, mənə kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və nə qədər ki sağam, mənə namaz qılıb zəkat verməyi əmr etdi. (Məryəm surəsi, 30-31)**

# KAMİL İMAN SAHİBİNİN QƏDƏRƏ (TALE) TƏSLİMİYYƏTİ

**De: "Allah'ın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O, bizim himayədarımızdır. Qoy, möminlər Allah'a təvəkkül etsinlər!" (Tövbə surəsi, 51)**

**"Biz, həqiqətən də, hər şeyi qədər ilə yaratdıq"** (Qəmər surəsi, 49) ayəsi ilə xəbər verildiyi kimi, Allah canlı-cansız bütün varlıqları qədərləri ilə birlikdə yaratmışdır. Allah'ın təyin etdiyi qədər (tale) xaricində heç bir varlığın yaxşılığa, ya da pisliyə mane olmağa və ya əksinə çevirməyə gücü yetməz. Məhz kamil iman sahibləri də Allah'ın onlar üçün yazdıqlarından başqa başlarına heç bir şey gəlməyəcəyinin şüurunda olan insanlardır.

Bu həqiqət, əslində, möminlər üçün yaradılmış sonsuz rahatlıq qaynağıdır. Çünki yer üzündə böyük-kiçik bütün hadisələri hər cür xırdalığı ilə sonsuz bir Ağıl planlamaqdadır. Bu səbəblə, hər biri möminlər üçün ən xeyirli şəkildə baş verir.

Bu mütləq həqiqəti qavrayan kamil iman sahibləri Allah'ın sonsuz ağlı ilə təyin etdiyi qədərə qəlbən təslim olaraq yaşayırlar. Allah'ın yaratdığı bütün hadisələri dinin mənfəətinə və inananların axirətlərinə faydalı olacaq şəkildə bir hikmətlə yaratdığını bilirlər. Bir ayədə "...Allah kafirlərə möminləri (məğlub etməyə) yol

verməyəcəkdir" (Nisa surəsi, 141) şəklində bildirilməsi hadisələrin mütləq surətdə inananların lehinə nəticələnəcəyini xəbər verir. Yenə bir başqa ayədə də "... Allah Ona yardım edənlərə, mütləq yardım edər...." (Həcc surəsi, 40) şəklində bildirilmişdir. Çünki Allah iman edənlərin dostu və vəlisidir. Allah'ı vəkil edən, yalnız Ona güvənən kamil iman sahibləri dünyada və axirətdə bu köməyin mütləq özlərinə çatacağını heç bir zaman unutmazlar. Xüsusilə də ilk baxışda əleyhlərinə görünən bir vəziyyət olduğunda bu düşüncələrində qətiyyət göstərər və bunda bir xeyir olduğunu bilərlər.

Allah dünyanı insanları sınamaq üçün xüsusi bir imtahan mühiti olaraq yaratmışdır. İnsanların çoxu başlarına bir yaxşılıq, gözəllik, ya da bərəkət gəldiyində bunun Allah'dan olduğunu düşünərək Allah'a qarşı təslimiyyətli və şükür edici bir rəftar göstərərlər. Ancaq tərs kimi görünən, ya da istəmədikləri bir vəziyyətlə qarşılaşdıqlarında bu təslimiyyətli rəftarlarını dərhal itirərlər. Allah'a qarşı üsyan edib baş qaldırmağa qədər çatan bir təvəkkülsüzlük və nankorluq içərisinə girərlər. Quranda insanların bu vəziyyəti belə açıqlanmışdır:

> **... Biz insana Öz mərhəmətimizdən daddırdıqda ona sevinir. Onlara öz əlləri ilə etdikləri əməllərin ucbatından bir bədbəxtlik üz verdikdə isə insanın nankor olduğunu görərsən. (Şura surəsi, 48)**

Kamil iman sahibləri isə **"... Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik. Siz ancaq Bizə qaytarılacaqsınız!"** (Ənbiya surəsi, 35) ayəsində verilən sirri qavramışlar. Lehinə, ya da əleyhinə kimi görünən hər hadisənin, əslində, Allah'a olan imanlarının sınanması üçün xüsusi olaraq yaradılmış olduğunu unutmazlar. Qarşılaşdıqları hadisələr nə olursa-olsun Allah'a olan təslimiyyətləri və təvəkkülləri azalmaz. Başlarına gələn və mənfi kimi görünən bir çox hadisənin axirətləri üçün son dərəcə xeyirli nəticələr meydana

gətirə biləcəyini bilərlər. Çünki Allah hər hadisəni insanın görə bildiyi və görə bilmədiyi bir çox hikmətlə birlikdə yaradır. Bu həqiqət bir ayədə belə xəbər verilir:

**... Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə (bunu) bilmirsiniz. (Bəqərə surəsi, 216)**

Ayədə də diqqət çəkildiyi kimi, pislik sandığı şey insan üçün bir yaxşılığa vəsilə ola bilər. Çünki insanın başına gələn bütün hadisələri sonsuz ağıl sahibi olan Allah planlayır. İnsanın ağlı və mühakiməsi isə çox məhduddur. Bu səbəblə, insanın üzərinə düşən özünü hər ehtimalda yaxşıya çatdıracaq Allah'ın sonsuz ağlı ilə təyin etdiyi qədərə təslim olmaqdır.

Bir hadisə ilk mərhələdə şər kimi görünə bilər, amma bəlkə də Allah burada bu hadisəyə məruz qalan insanların Özünə olan təslimiyyətlərini sınayır. Və bəlkə də ikinci mərhələdə bu hadisəni böyük bir xeyirə çevirəcək. Allah'a güvənməyən insanlar ilk anda bunun bir sınaq olduğunu unudub təlaşa düşərlər. Kamil bir imana sahib olan insanlar isə həm gözəl bir rəftar göstərdikləri üçün Allah'ın rizasını qazanmış olurlar, həm də hadisənin nəticəsində mütləq bir xeyirə qovuşurlar.

Quranda kamil iman mövzusunda ən gözəl nümunələri təşkil edən peyğəmbərlərin həyatlarından müxtəlif hissələr verilmişdir. Məsələn, fironun zülmündən uzaqlaşmaq üçün Misir xalqı ilə birlikdə yola çıxan hz. Musa ilk anda heç bir qurtuluş yolunun görünmədiyi bir vəziyyətlə qarşılaşmışdır. Qarşıya keçmələrinin qeyri-mümkün göründüyü bir dəniz kənarına gəldiklərində də firon və ordusu onları izləyirdi. İlk baxışda xilas olmalarının qeyri-mümkün kimi göründüyü belə bir vəziyyətdə Allah'ın hər yaratdığında bir xeyir olduğunu qavrayanlarla tərəddüdə qapılanlar müəyyən olmuşdur. Bu hadisə Quranda belə izah edilir:

**Günəş üfüqdən qalxarkən (firon öz əsgərləri ilə) onları izləməyə başladılar.**

**İki dəstə bir-birini görüncə Musanın səhabələri: "Biz yaxalanacağıq!"– dedilər.**
**(Musa) dedi: "Xeyr, Rəbbim mənimlədir. O, mənə doğru yol göstərəcəkdir!"**
**Biz Musaya: "Əsanla dənizə vur!"(– deyə) vəhy etdik (Dəniz) dərhal yarıldı, (on iki yol açıldı) və hər biri nəhəng bir dağ kimi oldu.**
**O birilərini də ora yaxınlaşdırdıq.**
**Musa və onunla birlikdə olanların hamısını xilas etdik.**
**O birilərini isə suya qərq etdik.**

**Şübhəsiz ki, bu (hekayətdə) bir ibrət vardır. Lakin onların çoxu iman gətirmədi. (Şüəra surəsi, 60-67)**

Ayələrdə də xəbər verildiyi kimi, Peyğəmbərin yanındakı insanlardan bəziləri dərhal ümidsizliyə qapılmış və artıq yaxalandıqlarını demişlər. Hz. Musa isə əsla ümidsizliyə qapılmamış və Allah'dan qəti olaraq bir kömək gələcəyini unutmamışdır. Və Allah bu sınaqdan dərhal sonra bir möcüzə yaratmış, dənizin iki böyük su kütləsi şəklində ayrılmasını təmin edərək, Peyğəmbər və onun yanındakı inananların xilas olması üçün yol göstərmişdir. Sonra da firon və ordusunu bu sulara qərq etmişdir.

Allah görünüşcə qəti olaraq şər kimi görünən bir hadisəni möminlərin təslimiyyəti müəyyən olduqdan dərhal sonra xeyirə çevirmişdir.

Bu mövzudakı digər bir nümunə də Peyğəmbərimizlə (s.ə.v) əlaqədardır:

**Əgər siz (Peyğəmbərə) kömək etməsəniz, (bilin ki,) Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq (Məkkədən) çıxartdılar. O iki**

**nəfər mağarada olarkən (onlardan) biri öz yoldaşına dedi: “Qəm yemə, Allah bizimlədir!” Allah ona arxayınlıq nazil etdi, sizin görmədiyiniz döyüşçülərlə ona yardım göstərdi və kafirlərin sözünü alçaltdı. Ancaq Allah’ın sözü ucadır. Allah qüdrətlidir, müdrikdir. (Tövbə surəsi, 40)**

Peyğəmbərimiz hz. Muhəmməd (s.ə.v) içində olduğu çətin şəraitlərdə təvəkkül göstərmiş və yanındakı yoldaşını da Allah’a təslimiyyətə dəvət etmişdir. Kamil iman sahibləri də özlərinə Quranda təriflənən peyğəmbərlərin əxlaqını nümunə götürərlər. Və bu yüksək əxlaqı göstərməyi hədəf seçib başlarına gələn hər çətinlikdə belə deyərlər:

**… De: “Mənə Allah yetər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edirlər!” (Zumər surəsi, 38)**

# KAMİL İMAN SAHİBİNİN DÜNYA HƏYATINA BAXIŞI

**Bu dünya həyatı əyləncə və oyundan başqa bir şey deyildir. Axirət yurdu isə əsl həyatdır. Kaş ki, biləydilər! (Ənkəbut surəsi, 64)**

Allah dünyanı insanlar üçün keçici bir yurd olaraq yaratmışdır. İnsanların sınanması, iman edənlərin nöqsanlardan arınması və öyrədilərək cənnətə layiq olacaq bir quruluşa sahib olması, inkar edənlərin də pisliklərinin ortaya çıxması üçün... Ancaq bu həqiqəti çox az insan düşünüb anlayır ki, məhz onlar da kamil iman sahibləridir.

Kamil imana sahib olan bir möminin dünyaya baxışı Qurana əsasən olur. Belə bir adam inkarçılar kimi dünyaya bağlanmır, əksinə, sonsuz axirət həyatı üçün daim hazırlıq görür. Bundan başqa, Quranda xəbər verilən **"... insanları ancaq Mənə ibadət etmək üçün yaratdım"** (Zariyat surəsi, 56) ayəsinin hökmü ilə dünyada olma məqsədinin hər şeydən əvvəl Allah'a qulluq etmək olduğunu bilir.

Allah'a qulluq etmək, daha əvvəl də ifadə etdiyimiz kimi, yalnız namaz qılmaq, oruc tutmaq kimi ibadətləri yerinə yetirmək deyil. Əksinə, qulluq bir insanın bütün həyatını əhatə edən bir hərəkətdir.

Kamil imana sahib olan bir mömin bütün həyatını Allah'a qulluq etməklə keçirən insandır. Yalnız Allah üçün yaşayar, Allah üçün çalışar, özünə verilən bütün imkanlardan yenə də yalnız Allah üçün istifadə edər. Çünki "İnsanı qarışdırılmış nütfədən yaradaraq onu sınaqdan keçirmək məqsədilə eşidən və görən etdik" (İnsan surəsi, 2) ayəsində də ifadə edildiyi kimi, Allah dünya həyatını insanı sınamaq üçün yaratdığını bildirir.

Allah dünya həyatının bir sınanma yeri olduğunu bildirdiyi kimi, bu həyatın hiyləsinə də xüsusilə diqqət çəkmiş və insanları bu mövzuda açıqca xəbərdar etmişdir:

**Ey insanlar, heç şübhəsiz, Allah'ın vədi haqdır; elə isə dünya həyatı sizi aldatmasın... (Fatir surəsi, 5)**

Məhz kamil iman sahibləri nə qədər cazibədar görünsə də, dünya həyatının bəzəklərinə aldanmayan insanlardır. Çünki onlar Allah'ın haqq kitabından dünya həyatının əsl üzünü öyrənmişlər. Dünya həyatı Quran ayələrində bildirildiyi kimi, oyun, əyləncə, bəzək, öyünmə, mal və uşaqları çoxaltma həvəsidir. Allah bir ayəsində dünya həyatını yaşıllanıb əkinçilərin xoşuna gələndən sonra quruyub çör-çöp olan bir əkin nümunəsinə bənzətmişdir:

**Bilin ki, dünya həyatı oyun və əyləncə, bəzək-düzək, bir-birinizin yanında öyünmək, var-dövləti və oğul-uşağı çoxaltmaq istəyindən ibarətdir. Bu, elə bir yağışa bənzəyir ki, ondan əmələ gələn bitki əkinçiləri heyran edir. Sonra o quruyur və sən onun sapsarı olduğunu görürsən. Sonra isə o, çör-çöpə dönür. (Kimisini) axirətdə şiddətli əzab, (kimisini də) Allah'dan bağışlanma və razılıq gözləyir. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir. (Hədid surəsi, 20)**

Quranın bu nümunəsində diqqət çəkildiyi kimi, yer üzündə heç bir şey zamana qarşı heç nə edə bilməz: nə gözəl evlər, avtomobillər,

məkanlar, mənzərələr, nə də gənc, gözəl və mövqe sahibi insanlar... Yeni olan hər şey qısa müddətdə köhnəlir, gənc olan hər kəs yaşlanır, gözəl olan köhnəlir və hətta zamanla tanınmaz hala gəlir. Yenə ən dəyər verilən əşyalar zamanla köhnəlib dəyərini itirir. Ən xoşbəxt anlar sürətlə keçib tarixə çevrilir, ən gözəl ləzzətlərdən əsər-əlamət belə qalmır. Bir az zaman keçdiyində insan az qala bunları heç yaşamamış kimi hisslər keçirir. Allah bir ayədə insanlara axirəti unudduraraq, onları dünyaya bağlayan həvəsin nələr olduğunu belə bildirmişdir:

> **Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah dərgahındadır. (Ali-İmran surəsi, 14)**

Diqqət yetirilsə, ayədə üzərində durulan dünya nemətlərinin ortaq yanı hamısının məhdud və keçici zövqlər olmalarıdır. Bu səbəblə, dünyada həvəslə bağlanası heç bir şey yoxdur. Hər şeydən əvvəl, nə insanın ət və sümükdən ibarət olan quruluşu, nə də dünyadakı digər vəsaitlər buna uyğun yaradılmışdır. Bunlar cənnətdəki nemətlərin çox əksik bir nüsxəsi olaraq, axirəti xatırlatmaq məqsədilə var edilmişlər.

Məhz bu əhəmiyyətli həqiqəti qavrayan kamil iman sahibi olan bir mömin dünyadakı bütün nemətlərdən faydalanar, amma (dünyaya aldanan insanlardan fərqlənərək) bu nemətlərə qarşı həvəsə qapılmaz. Heç bir zaman əlindəkilərə sahiblənməz, əksinə, ona verdiklərindən ötrü hər an Allah'a qarşı şükür edici rəftar göstərər. Çünki yer üzündəki bütün mülkün əsl sahibinin Allah olduğunu bilər.

Mala, gözəlliyə, gücə sahib olduqlarını zənn edənlər isə, əslində, yalnız özlərini aldadırlar, çünki sahib olduqlarını zənn etdikləri şeylərin heç birini özləri yaratmamışlar. Hətta bunların birini belə

yaratmağa gücləri çatmaz. Üstəlik, bunların yox olmalarına da mane ola bilməzlər. Özləri də yaradılmışlar və bir gün onlar da mütləq dünya həyatına aid olan sahib olduqları hər şeyi geridə buraxıb ölümü dadacaqlar.

Məhz kamil iman sahiblərini qəflətdə olan insanlardan ayıran ən böyük fərqlərdən biri Quranda **"... bunlar ötəri dünyanı üstün tutaraq ağır günü görməməzliyə vururlar"** (İnsan surəsi, 27) ayəsində ifadə edilən həqiqətin şüurunda olmaları və dünyaya deyil, axirətə istiqamətli hazırlıq içində olmalarıdır. Allah bu insanların belə söylədiyini xəbər verir:

**Onlardan: "Ey Rəbbimiz! Bizə həm dünyada, həm də axirətdə gözəl nemətlər ver və bizi od əzabından qoru!"– deyənləri də vardır. (Bəqərə surəsi, 201)**

Allah bu səmimi davranışlarının və dualarının əvəzinə onlara həm dünyanın, həm də axirətin bütün gözəlliklərini və nemətlərini verir. Allah Quranda bunu belə müjdələmişdir:

**Beləliklə, Allah onlara həm dünya mükafatını, həm də gözəl axirət mükafatını verdi. Allah yaxşı iş görənləri sevir. (Ali-İmran surəsi, 148)**

**Dünya həyatında da, axirətdə də onlara müjdə vardır. Allah'ın kəlmələri əsla dəyişilməz. Bu, böyük uğurdur. (Yunis surəsi, 64)**

# KAMİL İMAN SAHİBİNİN ÖLÜMƏ BAXIŞI

**Hər bir kəs ölümü dadacaqdır. Lakin qiyamət günü mükafatlarınız sizə tam veriləcəkdir. Kim oddan uzaqlaşdırılıb cənnətə daxil edilərsə, o, uğur qazanmış olar. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir. (Ali-İmran surəsi, 185)**

Quranda **"Hər kəs ölümü dadacaqdır. Sonra da Bizə qaytarılacaqsınız"** (Ənkəbut surəsi, 57) ayəsində də xəbər verildiyi kimi, dünyadakı hər insan özü üçün təqdir edilmiş bir günün təyin olunmuş bir saatında, şübhəsiz ki, ölümlə qarşılaşacaq. Belə ki, bu günə qədər heç bir insanın gücü, malı, mülkü, sərvəti, şöhrəti, mövqeyi, etibarı, qüvvəti və gözəlliyi ölümü özündən uzaqlaşdırmağa yetməmişdir. Ölüm Allah'ın bir qanunudur: gəlmiş-keçmiş bütün insanlar bu qəti və qarşısıalınmaz həqiqətlə qarşılaşmışlar.

**"Harada olursunuzsa olun, ölüm sizi haqlayacaq. Hətta yüksək qalalarda olsanız belə..."** (Nisa surəsi, 78) ayəsi ilə xatırladıldığı kimi, heç kim ölümdən qaçmağı bacara bilməmişdir və bacara bilməyəcək.

Bu həqiqət kamil iman sahiblərinin dərin bir anlayışla qavradıqları bir mövzudur. Ölümün qətiliyini və yaxınlığını dərk etmələri ilə

birlikdə ölümdən sonrakı sonsuz həyata hazırlıq görmələrinin vacibliyini də anlayırlar. Allah'ın əmr etdiyi əxlaqa tam olaraq çatmadan və Allah'ın razılığını qazanmadan ölməkdən qorxar, bu səbəblə də böyük bir səmimiyyət və səylə Allah'ın dininə sarılırlar. Hər an öləcəkmiş kimi Allah'a yaxınlaşmağa və Onun razılığını qazanmağa çalışırlar. Quranda kamil iman sahiblərinin belə dua etdiklərindən bəhs edilir:

**... Ey Rəbbimiz! Bizə çoxlu səbir ver və bizi müsəlman olaraq öldür. (Əraf surəsi, 126)**

**... Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim himayədarımsan. Mənim canımı müsəlman kimi al və məni əməlisalehlərə qovuşdur. (Yusif surəsi, 101)**

Kamil iman sahibləri ölümü Allah'ın bir əmri olduğu üçün son dərəcə təslimiyyətlə qarşılayırlar. Hətta ölümü Rəbbimizin müjdələdiyi cənnətə qovuşmaq üçün bir qapı olaraq görürlər. Amma bir tərəfdən də cəhənnəm əzabından çəkinmələri lazım olduğunu bilir, var gücləri ilə xeyirlərdə yarışaraq Allah'ın razılığını qazanmaq üçün məşğul olurlar. Quranda inanan insanların axirətə qədər ümid və qorxu içərisində olacaqları bildirilmişdir. Nəticə olaraq, kamil iman sahibləri iman etdikləri üçün cənnəti ümid edərkən, bir tərəfdən də özlərini yetərli görmədikləri üçün cəhənnəmdən qorxurlar. Quranda kamil iman sahibi olan möminlərin pis hesabdan qorxuları, göstərdikləri gözəl rəftarlar və çatdıqları xeyirli nəticə belə bildirilmişdir:

**O kəslər ki, Allah'a verdikləri sözü yerinə yetirir və əhdi pozmurlar. O kəslər ki, Allah'ın qovuşdurulmasını əmr etdiyi şeyləri qovuşdurur, Rəbbindən qorxur və pis haqq-hesabdan çəkinirlər. O kəslər ki, Rəbbinin üzünü**

**diləyərək səbir edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir və pisliyi yaxşılıqla dəf edirlər. Onlar üçün axirət yurdu – əməlisaleh ataları, zövcələri və övladları ilə birlikdə daxil olacaqları Ədn bağları hazırlanmışdır. Mələklər bütün qapılardan onların yanına daxil olub (deyəcəklər): "Səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdunuz necə də gözəldir!" (Rəd surəsi, 20-24)**

# KAMİL İMAN SAHİBİNİN AXİRƏT İNANCI

**O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar. (Bəqərə surəsi, 4)**

Cəhənnəmdə yaşanan ağrı və əzabın şiddəti, şübhəsiz ki, dünyada yaşanan heç bir ağrı ilə müqayisə edilə bilməz. Yalnız atəş əzabının belə saysız növü vardır. Cəhənnəm əhli qışqırıqlar içində yanar, əlləri boyunlarına bağlı şəkildə atəşin dar yerinə atılar, başlarının üstündən qaynar su tökülər, dəmirdən qamçılarla qamçılanar, aclıq və susuzluqdan qıvrılarkən əzabdan-əzaba sürüklənərlər. Sonsuza qədər acıları bitməz. Duyduqları peşmanlıq, çarəsizlik və ümidsizlik hissi onları mənən əzər, yox olmaq istərlər. Amma bu, əsla reallaşmaz. Yaşadıqları dözülməz ağrıların şiddəti getdikcə daha da artar. Onlara belə deyilər:

**Yanın orada! Dözsəniz də, dözməsəniz də, sizin üçün eynidir. Sizə ancaq etdiyiniz əməllərin cəzası verilir". (Tur surəsi, 16)**

Məhz kamil iman sahibi olan bir mömin Quran ayələrində təsvir edilən bu mühiti və əzabı həmişə düşünər və Allah'a yönələr. Hər an ölüm mələkləri ilə qarşılaşa biləcəyini və beləliklə, axirətə keçə biləcəyini heç unutmadan hərəkət edər. Verdiyi qərarlarla, göstərdiyi

rəftar və davranışı ilə həmişə cənnəti qazanmağı və cəhənnəm əzabından uzaqlaşmağı istərlər. Çünki dünyada heç kim Allah'ın əzabından etibarda ola bilməz.

Qarşısına çıxan zərrə qədər bir əcr imkanını belə qaçırmaq istəməz. Hesab günündə həssas tərəzilərin (Ənbiya surəsi, 47) qurulacağını bilər. O gün yaxşılıqlarının ağır gəlməsi üçün qarşılaşdığı hər fürsəti qiymətləndirməli olduğunu düşünərək hərəkət edər. Çünki Allah insanları bu mövzuda belə xəbərdar etmişdir:

**O gün insanlar əməllərinin onlara göstərilməsi üçün dəstə-dəstə gələcəklər.**

**Zərrə qədər yaxşılıq edən (əvəzini) alacaqdır.**

**Zərrə qədər pislik edən də (əvəzini) alacaqdır. (Zəlzələ surəsi, 6-8)**

Kamil iman sahibi Allah'ın rizasına əks olan hər rəftardan da şiddətlə çəkinər. Çünki etdiyi hər hərəkət onu ya cənnətə, ya da cəhənnəmə yaxınlaşdıracaq. Bu ikisindən başqa gediləcək bir yer isə yoxdur.

Bu həqiqəti bilən kamil iman sahibləri həyatları boyunca qorxu və ümid içində olarlar. Hesab günü qorxu içində cənnətə və ya cəhənnəmə girməyi gözləyən insanların ruh hallarını xatirlərindən çıxarmazlar.

İnsanlar bu an cənnətlə cəhənnəm arasında seçim etməli olsalar və bir azdan sorğu ilə sonsuz həyata başlayacaqlarını anlasalar, hansı rəftarı göstərərlər?

Bu şərtlər altındakı bir insana yaxın olan və bəlkə də bir an sonra içərisinə atılacağı cəhənnəmi görə-görə Allah'ın razı olmayacağı bir rəftar göstərməsi mümkün olarmı?

Şübhəsiz ki, xeyr. Əksinə, belə bir vəziyyətlə qarşı-qarşıya gələn hər insan son da olsa bir fürsətinin olduğunu düşünərək cənnətə girə

bilmək üçün ağıl və vicdanından tam istifadə edər, Allah'ın ən bəyəndiyi rəftarı tətbiq etməyə çalışar. Dünyada ikən bu vəziyyəti özündən çox uzaq görən və axirət həyatı üçün heç bir hazırlıq etməyə ehtiyac duymayan bir insan belə böyük bir çaxnaşma içərisində əvəz verməyə çalışacaq. Ancaq o gün artıq əvəz vermək üçün vaxt yoxdur. Çünki Allah'ın qullarına təyin etdiyi imtahan müddəti ölümləri ilə birlikdə sona çatmış və hesab dəftərləri bağlanmışdır. O ana qədər yaxşılıqdan, ya da pislikdən yana nə etdilərsə, yalnız bunlarla əvəz görəcəklər.

Məhz kamil iman sahiblərinin dünya həyatında göstərdikləri səy axirətə - sonsuz cənnət və cəhənnəm həyatına qəti məlumatla iman etmələri, bunu ağıllarından çıxarmamaları və hər an ölümlə qarşılaşa biləcəklərindən qaynaqlanır. Onlar axirətdə bu qorxu və peşmanlığı yaşamamaq üçün dünya həyatı boyunca özlərini hər an bu toplanma yerində barələrində qərar verilməsini gözləyirmiş kimi düşünərlər. Sanki oraya getmiş, cənnətin gözəlliyini və cəhənnəmin qorxunclu-ğunu görüb dünyaya geri dönmüşlər. Bu açıq şüur və imanla axirətə hazırlıq görərlər. Və beləcə, qarşılaşdıqları hər hadisədə ən vicdanlı və ən gözəl rəftarı ortaya qoyarlar. Çünki bilirlər ki, göstərdikləri ən kiçik bir zəiflik, ya da bir vicdansızlıq o gün ürək ağrısı olacaq peşmanlığa səbəb ola bilər.

Nəticə olaraq, kamil iman sahiblərinin axirətə iman etmələri, onların Allah'a yaxınlaşmaqda və qorxub-çəkinməkdə sərhəd tanımamalarını təmin edir. Quranda **"Nə qədər bacarırsınızsa Allah'dan qorxun...."** (Təğabun surəsi, 16) ayəsində ifadə edildiyi kimi, bütün gücləri ilə Allah'dan qorxub-çəkinir və sonsuz məkanlarının cənnət olmasını ümid edirlər.

# KAMİL İMANIN NƏSİB ETDİYİ ÜSTÜN ƏXLAQ

**Həqiqətən də, sən böyük əxlaq sahibisən! (Qələm surəsi, 4)**

Allah'a qəlbən iman edən hər insan Onun bütün əmrlərini qeyd-şərtsiz yerinə yetirər. Bunun nəticəsində də ortaya üstün bir əxlaq modeli çıxar. Məhz kamil iman sahibi olan möminin sahib olduğu Quran hökmlərinə itaət etməyin nəsib etdiyi bu üstün əxlaqdır.

İnsan gözəl və qiymətli olan bütün xüsusiyyətlərə ancaq Allah'ın hökmlərinə riayət etməklə sahib ola bilər. Allah Quranda doğruluğu, ədaləti, səbri, fədakarlığı, vəfanı, sədaqəti, dözümlülüyü, itaəti, təvazökarlığı, xoş münasibəti, şəfqəti, mərhəməti, qəzəbi məğlub etməyi və s. bir çox üstün əxlaq xüsusiyyətini əmr edir. Bunların əksinə olan bütün əxlaq pozuntularını açıq hökmlərlə qadağan edir.

Quranda təqdim edilən bu üstün əxlaqı yaşamaq isə insanın Allah qorxusunun şiddətindən, bu səbəbdən, vicdanının səsini dinləməsindən asılıdır. Çünki bir insan Allah'dan nə qədər çox qorxsa və vicdanının göstərdiyi doğrulara nə qədər tabe olsa, Allah'ın hökmlərinə o qədər itaət edər. Buna zidd vəziyyətdəki adam isə Quran əxlaqını yaşamaqda stabillik göstərə bilməz. Allah'ın gözəl olaraq göstərdiyi əxlaqın bəzi xüsusiyyətlərini üzərində daşısa belə,

mənfəətləri ilə zidd düşdüyü anda tam fərqli xarakter göstərə bilər.

Məhz bu məqamda imani yetkinliyə çatmış insanların üstünlüyü ortaya çıxar. Kamil iman sahibi gözəl əxlaq nümunələrini həyatının hər anında, əsla imtina etmədən, digər insanlardan qat-qat daha çox və üstün bir şəkildə göstərər. O, səbrin ən çoxunu, fədakarlığın ən gözəlini, təslimiyyətin ən mükəmməlini, Allah sevgisinin ən şiddətlisini yaşamağa cəhd göstərər. Bu səbəblə də digər insanlar içərisində əxlaqi xüsusiyyətləri ilə önə keçər. Qurandakı ifadə ilə desək, təqva sahiblərinə öndər olar.

Əlbəttə, hər müsəlman üçün əsas hədəf belə üstün bir əxlaqa sahib olmaqdır. Əksinə, insan özünə bir sərhəd çəksə, özünü yetərli görən bir mövqeyə düşər. Quranın bir çox ayəsində insana özünü heç bir mövzuda yetərli görməməsi lazım olduğu öyrədilir. Bir ayədə insanın özünü yetərli görmənin adamı azdıracağına, yoldan çıxaracağına diqqət çəkilir:

**Xeyr! İnsan, doğrudan da, həddini aşır özünün ehtiyacsız olduğunu zənn etdiyinə görə. (Ələq surəsi, 6-7)**

Məhz bu səbəblə, Allah'a və axirət gününə inanan hər kəs Quranda əmr edilən əxlaqı gücünün yetdiyinin ən çoxu ilə yaşamağı hədəf seçməlidir. Ancaq belə bir hədəfi olan cənnətə girməyi və sonsuz həyatını orada peyğəmbərlərlə, saleh möminlərlə, şəhidlik mövqeyinə çatmış və doğru sözlü insanlarla keçirməyi ümid edə bilər. Allah yalnız itaətin bu gözəl nəticəyə çatdıracağını xəbər vermişdir:

**Allah'a və Elçisinə itaət edənlər Allah'ın onlara nemət olaraq bəxş etdiyi peyğəmbərlərlə, sidq ürəkdən inananlarla, şəhidlərlə və əməlisalehlərlə birlikdə olacaqlar. Onlar necə də gözəl dostlardır. (Nisa surəsi, 69)**

Bu hissədə Allah'ın əmr etdiyi üstün əxlaqı Quranda bildirilən detalları ilə araşdıracağıq. Ayələrin ifadəsi ilə desək, qurtulanlardan

olmaq üçün insanın nə dərəcə yüksək şövq içində olmasını və səy göstərməsini açıqlayacağıq.

**Kamil man sahibinin vicdanı**

İnsan özünə daim pisliyi əmr edən bir səslə - nəfsi ilə birlikdə yaradılmışdır. Ancaq bu səsin yanında nəfsinə ilham olunan və ona pisliklərdən çəkinməyi təlqin edən, onu həmişə doğruya və yaxşıya çağıran, yanılmayan bir səs də vardır. Nəfsdəki bu doğruya yönəldən səsə vicdan deyilir. Allah insanın nəfsindəki bu iki xüsusiyyəti bizə ayələrdə belə tanıdır:

**And olsun nəfsə və onu yaradıb kamilləşdirənə, ona günahları və (Allah'dan) qorxmağı təlqin edənə! Nəfsini təmizləyən uğur qazanmışdır. Onu batıran isə ziyana uğramışdır. (Şəms surəsi, 7-10)**

Ayədə ifadə edildiyi kimi, Allah insana nəfsinin pisliklərindən çəkinməyi ilham edir. Allah'ın bu ilhamı insanın vicdanı vasitəsilə olur. Bu səbəbdən, vicdan mömini doğruya, gözəl olana çağıran Allah'ın səsidir. Bu səbəblə də vicdan, eyni zamanda, kamil imanın açarıdır.

Kamil iman sahibləri həmişə bu səsə qulaq asırlar. Bu insanların vicdan anlayışı cəmiyyətin daxilində məlum olan vicdan anlayışından çox fərqlidir. Xalq arasında vicdan yalnız yoxsullara, yaşlılara kömək etmək, yardım aksiyalarında iştirak etmək kimi nümunələrlə ölçülür. Buna bənzər nadir hadisələrdən başqa, insanlar vicdanən hərəkət etməz və nəfslərinin nəzərdə tutduğu şəkildə bir həyat tərzi keçirərlər.

Vicdanlarından Quranda əmr edilən şəkildə istifadə edənlər yalnız kamil iman sahibləridir. Çünki onlar vicdanlarından həyatları boyunca hər zaman istifadə edərlər. Hədəfləri Allah'a yaxınlaşmaq və Onun məmnuniyyətini qazanmaq olduğu üçün şərtlər nə olursa-

olsun, günün iyirmi dörd saatı boyunca vicdanlarının səsinə qulaq asarlar. Nə yorğunluq, nə yuxusuzluq, nə də gündəlik həyatın qarışıqlığı onların bu səsi dinləmələrinə mane ola bilər. Ən çətin anlarında, ən təcili işlərində belə vicdanlarından gələn bir xəbərdarlıqla dərhal doğrunu görər və ən xeyirli olan rəftara yönələrlər.

Bu mövzunu daha yaxşı açıqlamaq üçün belə bir nümunə verə bilərik: günlərlə ağır bir işdə çalışdıqdan sonra ac, yorğun, yuxusuz və bəlkə də xəstə bir halda uzun bir səfərdən dönən mömin bir kimsəni düşünək. Bu ehtiyaclarını ödəmək üçün özünə vaxt ayırdığı zaman kömək tələb edən çətin vəziyyətdə qalmış bir insanla qarşılaşsa, heç bir tərəddüdə qapılmadan öz ehtiyaclarını bir kənara qoyaraq, bu kimsənin köməyinə tələsər. Əgər öz fiziki vəziyyəti buna əlverişli deyilsə, bütün imkanlarını bu adam üçün səfərbər edərək ona kömək edə bilən başqa insanlardan yardım istəyər. Və bu qədər çətin vəziyyətdə hər şeyi bir tərəfə buraxıb belə bir kömək etdiyi üçün də qarşı tərəfə əsla minnət etməz. Nə içində olduğu çətin vəziyyəti, nə də qarşı tərəf üçün etdiyi fədakarlığı dilə gətirər. Çünki o, bütün bunları yalnız və yalnız Allah'ın razılığını qazanmaq məqsədilə edir və bundan başqa da heç kimdən nə maddi, nə də mənəvi bir əvəz gözləyir. Bu insanların rəftarı Quranda belə bildirilir:

> **"Biz sizi yalnız Allah'ın üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik! Əslində, biz Rəbbimizdən gələ bilən çox kəskin və ağır bir gündən ehtiyat edirik!" (İnsan surəsi, 9-10)**

Məhz kamil iman sahibinin vicdan anlayışı budur. Hər cür çətin vəziyyət və şəraitdə vicdanına uyar və etdiyi heç bir yaxşılıq üçün heç kimdən bir əvəz gözləməz. Allah'ın razı olmasının sevinci ona yetər.

Buna qarşı eyni nümunəni bir də kamil iman sahib olmayan bir

kimsə üçün düşünək. Bu adam içində olduğu çətin və əlverişsiz şərtləri özü üçün bir bəhanə olaraq görər və vicdanının göstərdiyi yolu görməzlikdən gələr. Yuxusuzluq, yorğunluq, ya da aclıq kimi fiziki ehtiyaclarının olması rəftarlarının dəyişməsinə səbəb ola bilər. Bir anda dözümsüz, əsəbi və tərs bir insana çevrilə bilər. Belə bir vəziyyətdə nəinki kömək istəyən birinə kömək etmək, hətta özünə kömək etməyə çalışan yaxınlarına qarşı belə anlayışsız və tərs davranmağı təbii bir haqqı olaraq görə bilər. Əgər istisnalı bir vəziyyət olaraq qarşı tərəfə kömək etməyi qəbul etsə belə, bunu mütləq dilə gətirərək və qarşı tərəfi minnət altında buraxaraq edər.

Göründüyü kimi, kamil iman sahibi olan insanlarla olmayanların əxlaq və rəftarları arasında böyük bir uçurum vardır. Bu fərq həyatlarının hər anına əks olunar və eyni şəkildə, axirətdə alacağı əvəzlə mütləq ortaya çıxacaq.

## Kamil iman sahibinin səbri

Kamil iman sahibi olan adamın səbir etməyi yalnız çətinliklərə sinə gərmək şəklində məhdud bir anlayış içində qiymətləndirilməməlidir. Quranda xəbər verilən "Ey iman gətirənlər! Səbir edin, dözümlü olun..." (Ali-İmran surəsi, 200) ayəsinin hökmü ilə hər vəziyyətdə Quranın bütün hökmlərini nöqsansız və mükəmməl şəkildə yerinə yetirməkdə, qadağan edilən mövzulardan çəkinməyə maksimum diqqət göstərməkdə və hər vəziyyətdə ən ideal rəftar və davranışı, ən üstün əxlaqı göstərməkdə həyatı boyunca qorxmadan və zəiflik göstərmədən həmişə qətiyyət göstərər. Qısaca, Quranda təsvir edilən ideal mömin modelini yaşamaqda qətiyyətli davranaraq, heç bir şəraitdə və vəziyyətdə yorulmadan, usanmadan, zəiflik göstərmədən səbrini ortaya qoyar. Çünki gözəl əxlaq ancaq səy göstərildiyi zaman ortaya çıxar və kamil iman sahibləri də bu səylərində səbir edənlərdir.

Məhz bu səbəblə də səbir kamil iman sahibinin bütün həyatını əhatə edər, bütün hərəkət və davranışlarında əks olunar. Kamil iman sahibi Rəbbimizin **“Sən təmkinlə səbir et!”** (Məaric surəsi, 5) hökmü istiqamətində çox səbirli olar. Təvazökarlıqda səbir göstərər, ən təvazökar insan olar; Allah rizası üçün zəkatda səbir göstərər, ən comərd insan olar; öz nəfsini seçməməkdə səbir göstərər, ən fədakar insan olar.

Ən gözəl əxlaqı göstərən səbirlə əlaqədar Allah Quranda belə bir nümunə vermişdir:

**Yaxşılıqla pislik eyni ola bilməz. Sən (pisliyi) yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar. Bu isə ancaq səbir edənlərə verilir və ancaq böyük qismət sahiblərinə nəsib olur. (Fussilət surəsi, 34-35)**

Ayədən göründüyü kimi, Allah möminlərə bir pisliklə qarşılaşdıqlarında ən gözəl rəftarı göstərmələrini əmr etmişdir. Və bunu da ancaq səbir edənlərin bacara biləcəyini bildirmişdir. Bu nümunə gözəl əxlaq göstərməkdə səbrin nə qədər əhəmiyyətli bir rolu olduğunu açıq göstərir.

Kamil iman sahibinin bir xüsusiyyəti də bu gözəl əxlaq nümunələrini göstərərkən qarşılaşdığı mənfi kimi görünən heç bir hadisədə zəiflik və qərarsızlıq göstərməməsi və ya özünə bir nemət verildiyində də əsla təkəbbür göstərməməsidir.

Bir insan həyatının bəzi zamanlarında comərd, fədakar və ya son dərəcə təvazökar ola bilər. Və ya bir çətinliyə qarşı dözümlülük göstərə bilər. Ancaq insanın bu gözəl xüsusiyyətləri müəyyən vəziyyətlərdə tərk etməsi, özünə bəzi sərhədlər qoyması, “zəif damarı”nın olması, çətin anlarında gözəl davranışlarından vaz keçməsi, pis rəftar göstərməsi o günə qədər etdiklərinin də dəyərsiz qalmasına səbəb ola bilər. Çünki əhəmiyyətli olan təqlidi, saxta, səthi və ya ke-

çici bir gözəl əxlaq deyil, heç bir şəraitdə vaz keçilməyən, şəxsiyyəti ilə inteqrasiya olunmuş, yerləşmiş bir quruluşdur. Allah bir ayədə "... Əbədi qalan yaxşı əməllər isə Rəbbinin dərgahında savab və ümid baxımından daha əfzəldir" (Kəhf surəsi, 46) şəklində bildirərək insanın ümumi xarakterinin bir hissəsi olan gözəl əxlaq və davranışların Öz qatında qiymətli olduğunu ifadə etmişdir.

Səbir möminin Allah'a qarşı olan səmimiyyətinin və Ona yaxınlaşmaq üçün göstərdiyi cəhdin ən əhəmiyyətli göstəricilərindən biridir. Çünki insan ancaq səmimiyyəti, Allah'a olan yaxınlığı nisbətində səbir göstərə bilər. Bu xüsusiyyətləri ən üst səviyyədə saxlayan kamil iman sahibləri də səbir göstərmədə yarışarlar. Bir fədakarlıq etmələri lazımdırsa, bunu ən gözəl şəkildə, əllərindəki imkandan ən yüksək dərəcədə istifadə edərək edərlər. Bir ayədə: **"O kəslər ki, Rəbbinin üzünü diləyərək səbir edir…"** (Rəd surəsi, 22) - deyə xəbər verilir. Bu insanlar bir çətinliklə qarşılaşsalar da, qətiyyən ruhən çətinlik və təvəkkülsüzlük yaşamadan Allah'dan kömək diləyərlər.

Xalq arasında səbir dözüm ilə qarışdırılır. Halbuki, kamil iman sahibinin yaşadığı səbrin dözüm anlayışı ilə heç bir əlaqəsi yoxdur. Çünki dözmək xoşuna gəlməyən, ağrılı-acılı bir vəziyyət qarşısında zəruri bir dözmə, ya da könülsüz bir gözləmə halıdır. Allah üçün göstərilən səbir isə bir çətinlik qaynağı deyil, böyük bir zövq və xoşbəxtlik vəsiləsidir. Kamil iman sahibi olan mömin Allah'ın rizasını qazanmaq məqsədilə səbir edər, bu səbəbdən, səbrindən ötrü çətinliyə qapılmaz, əksinə, bundan mənəvi həzz duyar, Allah'ın bu səbrin əvəzində vəd etdiyi nemət və gözəllikləri ümid edərək böyük sevinc duyar. Allah səbrin iman etməyənlər üçün çətinlik verən bir vəziyyət olduğunu bir ayədə belə xəbər verir:

**Səbir etmək və namaz qılmaqla (Allah'dan) kömək diləyin! Həqiqətən, bu, (Allah'a) itaət edənlərdən başqa (hamıya) ağır gəlir. (Bəqərə surəsi, 45)**

Kamil imanlı bir möminin səbri o qədər dərindir ki, xilas olmaq istədiyi hər hansı bir problemdən qurtulmadıqda və ya istədiklərinə çata bilmədikdə belə səbrində və tələbində yenə dəyişiklik olmaz. Çünki hər şeyin Allah'ın idarəsində olduğunu və səbrinin əvəzini axirətdə artıqlaması ilə alacağını bilir. Buna görə, qarşısına çıxan hər hadisədə Allah'dan həmişə razıdır, Onun sonsuz şəfqət və mərhəmətinə iman edər, Ona güvənər. Əgər Allah onun istədiyi bir şeyi dərhal vermirsə, mütləq bunda daha böyük bir xeyir və gözəlliyin olduğunu bilir. Çünki Allah bütün dualara cavab verən və səbir edənə də əvəzini verəndir, vədi haqdır. Bir ayədə bildirildiyi kimi: "... Allah'dan daha doğru (söyləyən) kim ola bilər?" (Nisa surəsi, 87). Bunu dərk edən mömin belə düşünür: bəlkə Allah ona istədiyindən çoxunu verəcək, lakin əvvəlcə onu yetkinləşdirir, bəlkə də onun rəftarını və Özünə olan bağlılığını sınayır. Möminlərin Allah'a olan bu təslimiyyətləri Quranda belə bildirilmişdir:

**O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allah'a məxsusuq və Ona da qayıdacağıq!" - deyirlər. (Bəqərə surəsi, 156)**

Belə ki, Allah onları sınayacağını bildirərək, möminlərə qarşılarına çıxan çətinliklərə qarşı səbir etmələrini tövsiyə etmiş və bunun xeyirlə nəticələnəcəyini də müjdələmişdir:

**Bizi sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver. (Bəqərə surəsi, 155)**

Mömin ömrü boyunca gözəl bir səbir göstərər. **"Rəbbin üçün səbir et!"** (Muddəssir surəsi, 7) hökmünə həyatının hər anında itaət edər. Sonunda isə Allah'a qovuşar və Allah onu razılığı və cənnəti ilə mükafatlandırar. Cənnətin qapısındakı mələklər gələn möminlərə belə səslənərlər:

**“Səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdunuz necə də gözəldir!” (Rəd surəsi, 24)**

## Kamil iman sahibinin mərhəmət anlayışı

**Sonra isə o, iman gətirən, bir-birinə səbir və mərhəmət tövsiyə edənlərdən olmaqdır. (Bələd surəsi, 17)**

Quranda xəbər verilən **“Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allah’ın insanlara – xəlq etdiyi (şüurlu) məxluq kimi verdiyi fitrət budur....”** (Rum surəsi, 30) ayəsində açıqlandığı kimi, insanın fitrəti din əxlaqını yaşamaqdan zövq alacaq və ancaq bu şəkildə rahat olacaq şəkildə yaradılmışdır. Bu səbəblə, Quranda tövsiyə edilən şəfqət və mərhəmət hissləri kamil iman sahiblərinin heç bir çətinlik çəkmədən imanlarının təbii bir nəticəsi olaraq sahib olduqları bir əxlaqdır. Allah Quran əxlaqını yaşayan mömin qullarının üzərində Rauf (çox əsirgəyən, çox acıyan) və Rəhman adlarını təcəlli etdirir. Çünki Allah mərhəmətlilərin ən mərhəmətlisi, sonsuz şəfqət sahibidir. Quranda bir çox ayə ilə Allah’ın sonsuz şəfqətinə və mərhəmətinə diqqət çəkilmişdir:

**... Çünki (Allah) onlara (müsəlmanlara) qarşı şəfqətlidir, rəhmlidir. (Tövbə surəsi, 117)**

**... O, rəhm edənlərin ən rəhmlisidir. (Yusif surəsi, 92)**

**… Həqiqətən, Allah insanlara şəfqətlidir, mərhəmətlidir. (Həcc surəsi, 65)**

Məhz bu əxlaqı üzərilərində daşıyan kamil iman sahibləri insanlara qarşı şəfqətli və mərhəmətlidirlər. Ancaq onların mərhəmət anlayışı xalq arasında məşhur olan mərhəmət anlayışından çox fərqlənir. Onların mərhəməti Allah’ın mərhəmətinin bir təcəllisi olduğu üçün Allah’ın rizasına və Qurana uyğun bir mərhəmət şəklidir.

Mərhəmətlərində ölçü götürdükləri yeganə yol göstərici Qurandır. Qurandan başqa bir sistemin ölçülərini özündə əks etdirən bir mərhəmət anlayışının da şeytani bir mərhəmət olacağını bilirlər.

Onlardan kömək istəyən bir kimsənin bu köməkdən xeyir yolundamı, yoxsa Allah'ın bəyənmədiyi bir yoldamı istifadə edəcəyi onlar üçün əhəmiyyətli bir ölçüdür. Əgər bu kömək xeyir üçün istənirsə, mərhəmətləri dövrəyə girər və maddi-mənəvi hər cür köməyi edərlər. Ancaq eyni şəraitdə olduğu halda, əldə etdiyi köməkdən haram bir hərəkət üçün istifadə edəcək birinə yardım etməyi qəbul etməzlər. Allah'ın bəyəndiyi əsl mərhəmət də budur. Bir adamı Allah'ın bəyənmədiyi bir rəftardan çəkindirib düz yola çatdırmaq, dünyada qavraya bilməsə belə, axirətdə anlayacağı və çox şükür edəcəyi bir yaxşılıq və mərhəmət şəklidir.

Bundan başqa, möminlər şəfqət və mərhəməti əsas hədəfləri dinə müxalif çıxan inkarçılara qarşı göstərməzlər. Quranda bu mövzuda verilən ölçü isə ayədə belə bildirilmişdir:

**Muhəmməd Allah'ın elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər... (Fəth surəsi, 29)**

İnananlar ancaq Allah'a könüldən bağlı kəslər olan möminlərə mərhəmət edərlər. İnkarçılara qarşı isə son dərəcə sərt və qərarlı xarakter göstərər və mərhəmət adı altında əsla zəifliyə düşməzlər. Çünki belə bir rəftar yuxarıda açıqladığımız kimi, şeytanı bir mərhəmət anlayışı olar. Allah onların möminlərə qarşı rəftarının **"Əgər onlar sizi ələ keçirsələr, sizə düşmən kəsilər, əlləri və dilləri ilə sizə pislik edər və sizin kafir olmanızı istəyərlər"** (Mumtəhinə surəsi, 2) şəklində olduğunu bildirmişdir. Bu vəziyyətdə düşmənliklərini göstərmək üçün fürsət axtaran belə insanlara mərhəmət göstərməyin ağıllı bir rəftar olmayacağı da məlumdur.

Bununla bərabər, inananların möminlərə göstərdiyi mərhəmət və

şəfqət isə dünyada bənzəri görülməmiş əxlaq nümunəsidir. Bu mərhəmət onlara özü ilə bərabər fədakarlığı, incə düşüncəni, bağışlayıcı olmağı, sevgi və hörməti də gətirir. Kamil iman sahibləri qarşılarındakı adamın maddi-mənəvi hər cür ehtiyacının o söyləmədən fərqinə varar, duyduqları dərin şəfqət səbəbi ilə ona dərhal kömək etməyə çalışarlar. Bu mövzuda səy göstərməkdən heç bir şəkildə usanmazlar. Şübhəsiz ki, hər mövzuda olduğu kimi, bu mövzuda da möminlərə ən gözəl nümunə peyğəmbərlərin rəftarıdır. Ayədə Peyğəmbərimizin (s.ə.v) müsəlmanlara qarşı duyduğu şəfqət və mərhəmət belə izah edilmişdir:

**Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O, sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir. (Tövbə surəsi, 128)**

Ayədən də göründüyü kimi, Peyğəmbərimizin (s.ə.v) şəfqəti imanı ilə düz mütənasib olaraq o qədər çoxdur ki, Allah möminlərin hər hansı bir mövzuda çətinliyə düşmələrinin ona ağır gəldiyini bildirmişdir. Məhz kamil iman sahiblərinin özlərinə hədəf etdikləri mərhəmət anlayışı da budur.

## Kamil iman sahibinin fədakarlığı

Bir insanın heç bir əvəz gözləmədən qarşısındakı insanlar üçün fədakarlıq etməsi ancaq Allah'dan qorxması və axirətə inanması ilə mümkün olar. Çünki bu insanlar dünya həyatında göstərdikləri maddi-mənəvi hər cür cəhdin əvəzini Allah'dan gözləyirlər. Məhz bu səbəblə də cahiliyyə insanlarının əksinə, kamil iman sahibləri hər mövzuda hamıya qarşı üstün fədakarlıq nümunələri göstərə bilirlər.

Cahiliyyə cəmiyyətində isə insanların böyük hissəsi incə fədakarlıq anlayışından uzaq olurlar. Bunun ən böyük səbəbi din əxlaqından uzaqlaşmalarından qaynaqlanan eqoist olmalarıdır. Hər kəs birinci öz mənfəətini düşünür, digər insanların ehtiyacları isə ikinci planda olur.

Halbuki, əsl imana sahib bir adamın əxlaqı və rəftarı bu insanlardan tamamilə fərqlidir. Bu insanların ən əhəmiyyətli xüsusiyyətlərindən biri nəfslərinin eqoist həvəslərindən xilas olmalarıdır. Çünki ancaq nəfsinin hədsiz istəklərini məğlub edən, onu idarəsi altında tutan mömin digər möminlərə qarşı fədakar və incə düşüncəli davrana bilər. Belə ki, kamil iman möminlərin lazım gəldikdə öz haqlarından da imtina edərək digər mömin qardaşlarını özlərindən daha üstün tutduqları bir əxlaqı gətirər. Əsl iman, həqiqi təslimiyyət və həqiqi vicdan da budur. Bu mövzu ilə əlaqədar Quranda belə bir nümunə verilmişdir:

**Əvvəl yurd salmış və iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır. (Həşr surəsi, 9)**

Ayədə bu şəxslər ehtiyac içində olsalar da, mömin qardaşlarının ehtiyac və istəklərini özlərininkindən üstün tutarlar. Göstərdikləri bu əxlaq yalnız müəyyən hadisələrdə ortaya çıxmır, bu bütün həyatlarına hakim olan bir rəftardır. Ən ac, yuxusuz, yorğun, qısacası fiziki baxımdan ən çətin vəziyyətdə olduqlarında belə heç bir tərəddüd etmədən birinci növbədə digər möminlərin ehtiyacını ödəyərək öz ehtiyaclarını ikinci plana ata bilirlər. Və bundan ötrü heç bir zaman çətinlik duymaz, heç bir zaman fədakarlıq etmək üçün qarşı tərəfi minnət altında qoymazlar.

Cahiliyyə əxlaqına malik olan insanlar zəruri olaraq bir fədakarlıq etdikləri zaman mütləq qeyri-məmnun olduqlarını bildirərlər. Ya ibarəli bir sözlə, ya tərs bir baxışla, ya da çirkin bir rəftarla daxilən duyduqları qəzəbi və dözümsüzlüyü hiss etdirərlər. Halbuki, əsl imana sahib olan bir insan heç vaxt qarşı tərəfin, əslində, onun üçün böyük bir fədakarlıq etməyini anlaması üçün tərs davranmaz.

Əksinə, bunu qarşı tərəfə mümkün olduqca hiss etdirməməyə çalışaraq haqlarından keçərlər. Çünki onun üçün etdiyi gözəl rəftarı yalnız Allah'ın bilməsi kifayətdir. Bəzən qarşı tərəf fədakarlıq etdiyinin fərqinə belə varmaz.

## Kamil iman sahibinin təvazökarlığı

**… Sizin tanrınız tək olan İlahdır. Yalnız Ona itaət edin. Sən müti olanlara müjdə ver. (Həcc surəsi, 34)**

Quran əxlaqında təvazökarlıq insanın Allah'a qarşı aciz bir qul olduğunu bilməsi və bütün həyatını və davranışlarını bu istiqamətdə yönəltməsidir. Allah'ı təqdir edə bilən bir mömin üçün bunun əksi mümkün deyil. Çünki Allah'dan başqa ilah yoxdur. Hər şeyi yaradan, öldürən və sonra yenidən dirildəcək olan, hər işi idarə edən Odur. Ondan başqa qüvvə sahibi yoxdur. O, hər şeyi əhatə edən, hər şeyə gücü yetən, qədəri (taleyi) yaradan, hər şeyi eşidən və görən, hər şeydən xəbəri olandır. Allah bütün nöqsanlardan uzaq və heç bir şeyə ehtiyacı olmayan, daim diri olan, yanılmayan, unutmayandır.

İnsan isə heç bir şeyi yaratmağa gücü çatmayan, üstəlik, özü yaradılmış olan və Allah'ın ona öyrətdiyindən başqa heç bir məlumatı olmayan aciz bir varlıqdır. Hər an ehtiyac içindədir və Allah'ın ona an-an verdiyi minlərlə nemətə möhtacdır. Bunlardan biri belə olmadığında acizliyə və çətinliyə düşər. Ancaq Allah'ın verdiyi ruzi ilə həyatını davam etdirə bilən, qüsurlu bir varlıqdır.

Belə üstün, bənzərsiz və tək olan Allah'ın böyüklüyü qarşısında bu qədər böyük acizliklər içərisində olan insanın təvazökarlıq xaricində bir əxlaq göstərməsi hər şeydən əvvəl yaradılışına ziddir. Bu səbəblə, kamil iman sahibləri həyatlarının hər anını acizliklərini bilərək keçirirlər. Məhz bu şüur da onlara təbii olaraq təvazökar davranış qazandırır. Bu təvazökarlıq onların üzlərindən, baxışlarından, danışıqlarından aydın olduğu qədər digər bütün əxlaq xüsu-

siyyətlərində də özünü göstərir. Məsələn, ancaq təvazökar insan özünə verilən öyüdləri nəzərə alar. Möminlərin verdiyi hər cür tövsiyə və tənqidə açıqdır. Belə ki, dərin iman sahibi bir adam diqqətlə tətbiq etdiyini düşündüyü bir mövzuda belə özünə bir öyüd verildiyində, heç bir etiraz etməz və deyildiyi kimi, daha yaxşısını etməyə çalışar. Tamamilə haqlı olduğu bir mövzuda haqsız olduğu deyilsə belə, bunu da anlayışla qarşılayar. Və hz. Yusif kimi belə deyər:

**Mən özümə bəraət qazandırmıram. Çünki Rəbbimin rəhm etdiyi kəs istisna olmaqla, nəfs pis işləri əmr edər... (Yusif surəsi, 53)**

Belə bir təvazökar anlayış adamın özünü yetərli görməsini və nə qədər ağıllı olursa-olsun ağlını bəyənməsinə mane olduğu üçün onun hər zaman daha yaxşıya və daha mükəmmələ doğru irəliləyə bilməsini, eşitdiyi hər sözdən, aldığı hər öyüddən, hər tövsiyədən istifadə etməsini təmin edər.

Ağlını bəyənən və içində olduğu acizliyi unudub Allah'a qarşı böyüklənən bir kimsə isə hər şeydən əvvəl yaradılışına zidd davranmış olar. Allah Quranda **"…Allah'ın ayələri barəsində mübahisə edənlərin ürəklərində böyüklük iddiasından başqa bir şey yoxdur...."** (Mömin surəsi, 56) hökmü ilə diqqət çəkmişdir. Allah bir başqa ayədə də böyüklənənləri sevmədiyini bildirmişdir:

**İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə özünü darta-darta gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir. (Loğman surəsi, 18)**

Bu şəxslər necə yaradıldıqlarını, həm fiziki, həm də zehni cəhətdən Allah'ın qarşısında nə qədər böyük bir acizlik içərisində olduqlarını unutmuşlar. Bu rəftar isə Quranda şeytanın xüsusiyyəti olaraq izah edilir. Allah ilk insan olan hz. Adəmi yaratdığında bütün mələklərə ona səcdə etmələrini əmr etmiş, ancaq şeytan özünün in-

sandan daha üstün bir varlıq olduğunu qarşıya qoyaraq səcdə etməyi inkar etmişdir. Quranda şeytanın bu çirkin rəftarı belə bildirilir:

**Bir zaman sənin Rəbbin mələklərə belə demişdi: "Mən palçıqdan bir insan yaradacağam. Mən ona surət verib Öz ruhumdan üfürdüyüm zaman ona səcdə edin!" Mələklərin hamısı birlikdə səcdə etdi, yalnız iblisdən başqa! O, təkəbbür göstərdi və kafirlərdən oldu. (Allah) dedi: "Ey iblis! Sənə Mənim iki əlimlə yaratdığıma səcdə etməyə mane olan nə idi? Təkəbbür göstərdin, yoxsa böyüklərdən olmuşdun?" (İblis) dedi: "Mən ondan daha xeyirliyəm. Çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın!" (Allah) dedi: "Çıx oradan! Sən artıq qovulmuşsan! Haqq-hesab gününə qədər lənətim sənin üzərində olacaqdır!" (Sad surəsi, 71-78)**

Məhz Allah'a qarşı böyükləndikləri üçün insanlara qarşı da böyüklük göstərənlərin vəziyyəti budur. Bu insanlar özlərini çox bəyəndikləri və ağıllarından çox əmin olduqları üçün heç kimin sözünə etibar etməzlər. Hər zaman öz bildiklərini tətbiq edərlər. Bu da onların Quranda əmr edilən bir çox əxlaq xüsusiyyətini yaşaya bilməmələrinə səbəb olar. Allah Quranda "Ayələrimizi yalan sayıb onlara təkəbbürlüklə yanaşanlar isə od sakinləridirlər. Onlar orada əbədi qalacaqlar" (Əraf surəsi, 36) şəklində bildirmişdir. Allah'a qarşı acizliklərini unudanlar və böyüklük göstərənlər cəhənnəmlə əvəz görəcəklər.

Kamil iman sahibləri isə bu rəftardan çəkindikləri üçün cənnətlə mükafatlandırılacaqlar:

**Biz o axirət yurdunu yer üzündə təkəbbürlük etmək və fitnə-fəsad törətmək istəməyənlərə nəsib edirik. (Gözəl) aqibət müttəqilərindir. (Qəsəs surəsi, 83)**

### Kamil iman sahibinin əfvediciliyi

İnsan səhv etməyə uyğun bir varlıqdır. Dünyaya sınaqdan keçirilmək üçün gəlmişdir və ancaq Quran əxlaqını öyrəndikcə yetkinləşə, etdiyi səhvlərdən xilas ola və ancaq bu şəkildə üstün bir əxlaqa çata bilər. Belə ki, Quranda bildirilən tövbə ilə əlaqədar ayələr də insanın bu acizliyinin bir göstəricisidir. Allah yaradıcısı olaraq insanın bu acizliyini bilir və Quranda cəhalət səbəbi ilə səhv edən, fərqinə vardığında isə dərhal tövbə edib rəftarını düzəldənlərin səhvlərini bağışlayacağını bildirir:

**Allah ancaq o kəslərin tövbələrini qəbul edir ki, onlar avamlıqları üzündən pis iş gördükdən sonra tezliklə tövbə edirlər. Allah onların tövbələrini qəbul edər. Həqiqətən, Allah biləndir, müdrikdir. (Nisa surəsi, 17)**

İnsan ən gözəl şəkildə ağıllı və vicdanlı davranıb bütün səmimiyyəti ilə hərəkət edirsə və buna baxmayaraq, səhv bir rəftar edirsə, Allah'ın bağışlamasını ümid edə bilər. Allah bir çox ayədə bağışlayan, rəhmli olduğunu xəbər vermişdir. Bir ayədə belə deyilir:

**Qullarıma xəbər ver ki, Mən bağışlayanam, rəhmliyəm. (Hicr surəsi, 49)**

Allah edilən səhvləri bağışlayacağını bildirmişkən möminlərin bu insanları bağışlamamaları isə, əlbəttə, mümkün deyil. Bundan başqa, Allah bir çox ayədə möminlərə də eyni şəkildə rəhmli olmalarını tövsiyə etmişdir:

**Sən bağışlama (yolunu) tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər. (Əraf surəsi, 199)**

Bu əxlaq üzərindəki kamil iman sahibləri möminlərə qarşı Allah'ın əmr etdiyi şəkildə bağışlayıcı bir rəftar göstərərlər. Şübhə yoxdur ki, bu, üstün bir vicdan əlamətidir. Çünki bir səhv edildiyində, xüsusilə də bu səhvdən ötrü maddi, ya da mənəvi bir zərər meydana

gəldiyində, bağışlamaq insanların nəfslərinə çox ağır gəlir. Hətta əksinə, əsəbiləşərək hirslərini büruzə vermək və qarşı tərəfə etdiyinin əvəzini vermək istəyərlər. Halbuki, möminlər Allah'ın Quranda əmr etdiyi kimi qəzəblərini boğarlar.

İnananlar Allah'ın əmrinə müvafiq olaraq nəfslərinə uymaz və Quranın tövsiyəsinə riayət edərək bağışlama yolunu seçərlər. Bir səhvə yol verən adama edəcəkləri ən böyük yaxşılığın gözəl sözlə öyüd vermək və bu şəkildə səhvini göstərmək olduğunu bilərlər. Çünki bir ayədə **"Sən xatırlat! Çünki xatırlatmaq möminlərə fayda verir"** (Zariyat surəsi, 55) şəklində ifadə edilmişdir.

Bir başqa ayədə də Allah **"... Qoy əfv edib bağışlasınlar. Məgər siz Allah'ın sizi bağışlamasını istəmirsinizmi? Allah bağışlayandır, rəhmlidir"** (Nur surəsi, 22) şəklində buyurmuşdur. Mömin bir səhv etdiyi və bundan səmimi olaraq imtina etdiyi zaman bunun həm Allah qatında bağışlanmasını qəlbən arzu edər, həm də müsəlmanların onu bağışlamalarını istəyər. Və rəhmli bir rəftarla qarşılaşdığı zaman bunun Allah'ın böyük bir neməti və Allah'ın təmin etdiyi bir asanlıq olduğunu dərk edər. Bu səbəblə, kamil iman sahibləri özləri üçün tələb etdikləri bu bağışlanmağı qarşılarındakı insanlara da göstərərlər. Şübhəsiz ki, bu, eyni zamanda, Allah'ın məmnuniyyətini və rizasını qazanmağa da ən uyğun olan rəftardır:

> **... Lakin onları əfv etsəniz, (günahlarından) keçsəniz və bağışlasanız, (bilin ki,) Allah bağışlayandır, rəhmlidir. (Təğabun surəsi, 14)**

## Kamil iman sahibinin ədalət anlayışı

> **Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara (haqqını) verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir.**

**O, sizə öyüd-nəsihət verir ki, bəlkə, düşünüb ibrət alasınız. (Nəhl surəsi, 90)**

Allah Quranda insanlara şərtlər nə olursa-olsun ədaləti qorumalarını əmr etmişdir:

**Ey iman gətirənlər! Özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri kimi ədaləti qoruyun. (Əleyhinə şahidlik edəcəyiniz şəxslərin) varlı və ya kasıb olmasından asılı olmayaraq, Allah onların hər ikisinə daha yaxındır. Hissiyyata qapılıb haqdan uzaqlaşmayın! Əgər siz (cəfəngiyat) danışsanız və ya (həqiqəti deməkdən) boyun qaçırsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Nisa surəsi, 135)**

Kamil imana sahib olan möminlər Allah'ın bu əmrini əskiksiz olaraq yerinə yetirərlər. Verəcəkləri qərarın nəticələri özlərinə, ya da ən yaxınlarına təsir etsə də, Allah üçün ədaləti qoruyarlar. Çünki onlar öldükdən sonra hesab verəcəklərini və bütün etdiklərinin qarşılarına çıxacağını, böyük-kiçik hər şeydən hesaba çəkiləcəklərini bilərlər. Bu səbəblə, dünyada heç bir mənfəəti axirətdə qazanacaqlarını ümid etdikləri Allah'ın rizasından və cənnətindən üstün görməzlər.

Səmimi möminlərin ən əhəmiyyətli xüsusiyyətlərindən biri özlərinə yarışıb önə keçənlərin yolunu seçmələridir. Bu səbəblə, hər işlərində Allah'ın ən çox razı olacağını ümid etdikləri rəftarı göstərərlər. Buna görə, qohumluq əlaqələri və ya öz dünyəvi mənfəətləri onları ədalətli davranmaqdan saxlamaz. Çünki Allah bir Quran ayəsində belə əmr edir:

**Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir. Allah'ın sizə verdiyi bu öyüd-nəsihət**

**necə də gözəldir! Şübhəsiz ki, Allah eşidəndir, görəndir. (Nisa surəsi, 58)**

Bir başqa ayədə isə Allah inananların düşmənçilik bəslədikləri şəxslərə qarşı da son dərəcə ədalətli davranaraq, təqvalarından vaz keçməmələrini əmr etmişdir:

**Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. (Hər hansı bir) camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allah'dan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Maidə surəsi, 8)**

Allah'ın hökmlərini yerinə yetirən kamil iman sahibləri bu xüsusiyyətləri ilə cahiliyyə cəmiyyətindən tamamilə fərqlənirlər. Çünki cahiliyyə sistemində qəzəb və kin duyulan bir kimsədən intiqam alma duyğusu hər zaman üstünlük təşkil edir. Vicdan kənarda qalır və insanın alacağı qərarlarda nəfsi hakim mövqe tutur. Nəfsdə olan qəzəb və hirs isə insanın ağlını və mühakimə qabiliyyətini sıradan çıxarır. Buna görə də insan ədalətli qərarlar verə bilmir.

Quranın ifadə etdiyi mənada bir ədalət anlayışı üçün isə insan hər şeydən əvvəl nəfsinin istəklərindən imtina etməli və vicdanının sözündən bir an olsun belə çıxmamalıdır. Hirsləndiyində qəzəbinə hakim olacaq bir iradəyə sahib olması və bunu hər an Quranın qoyduğu ölçülər daxilində düşünməsi vacib şərtdir.

Məhz kamil iman sahibləri bu xüsusiyyətlərin hamısına sahibdir. **"... Sözsüz ki, Allah insaflıları sevir"** (Hucurat surəsi, 9) ayəsinin hökmü ilə ədalətdən əsla üz çevirməzlər.

## Kamil iman sahibinin haqqı tövsiyə etməsi

**Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın.**

**Məhz onlar nicata qovuşanlardır. (Ali-İmran surəsi, 104)**

Allah'ın Qurandakı bu əmrinə kamil iman sahibləri tam olaraq riayət edərlər. Yaxşı işlər görməyi buyurub, pis əməllərə qadağa qoymaq anlayışı ölənə qədər bütün həyatlarına hakim olar. Yaxşı işlər görməyi buyurub, pis əməllərə qadağa qoymağın nə olduğunu isə, şübhəsiz, ən doğru olaraq Qurandan öyrənə bilərik.

Qurana görə yaxşılığı əmr etmək qarşı tərəfin hər şeydən əvvəl Allah'ı tanıması, Onu çox sevməsi və Ondan çox qorxmalı olduğunu bilməsini, axirətin qəti bir həqiqət olduğunu və Qurandan hesaba çəkiləcəyini qavramasını təmin etmək; vicdanını dinləməyə təşviq etmək, səmimiyyəti, sevgini, hörməti, şəfqəti, mərhəməti, xoş münasibəti, bağışlayıcılığı, fədakarlığı, qısacası, bütün Quran əxlaqını ən mükəmməl şəkildə yaşamasını təmin etməkdir. Əsl yaxşılıq budur. Çünki bu, qarşı tərəfin dünyada və axirətdə ən gözəl həyatı yaşamasını təmin edər və onun sonsuz bir əzabdan xilas olmasına vəsilə olar.

Pislikdən çəkindirmək isə adamın şeytana uymasına mane olmaq, nəfsinin eqoist istəklərindən arınmasını təmin etmək, onu səmimiyyətsizlikdən, ikiüzlülükdən, qürurdan, Allah'a qarşı böyüklənməkdən, vicdansızlıqdan təmizləmək və Allah'ın razı olmayacağı bir rəftar etməsinə mane olmaqdır.

Məhz kamil iman sahiblərinin haqqı tövsiyə etmələri bu şəkildə baş verir. Allah bu şəxsləri Quranda belə təyin etmişdir:

**Beləléri Allah'a, axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisalehlərdəndirlər. (Ali-İmran surəsi, 114)**

Onlar bu səylərinə görə heç kimdən bir şey istəməzlər. Onların yeganə hədəfləri Quranın əmrlərini yerinə yetirə bilmək və beləcə, Rəbbimizin rizasını qazana bilməkdir. Allah inananlara bu mövzuda

peyğəmbərlərin əxlaqını nümunə göstərir. Allah'ın elçiləri tarix boyunca göndərildikləri bütün qövmləri xəbərdar edib qorxutmuş və onlara belə söyləmişlər:

**Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir. (Şüəra surəsi, 109)**

Quranda bu mövzudakı bir başqa nümunə də hz. Musanın firona olan təbliğidir. Ayələrdə belə buyurulur:

**O zaman Rəbbi onu müqəddəs Tuva vadisində səsləyib demişdi:**
**"Fironun yanına yollan! O, həddini çox aşmışdır.**
**De: "(Günahlardan) xilas olmaq istəyirsənmi?**
**Səni Rəbbinə doğru yönəldimmi ki, (Ondan) qorxub çəkinəsən?"**
**(Musa) ən böyük möcüzəni (firona) göstərdi.**
**O isə yalan sayıb üsyankar olduğunu göstərdi.**
**Sonra da üz döndərib (fəsad törətməyə) girişdi.**
**O, (camaatını) toplayıb dedi: "Sizin ən uca rəbbiniz mənəm!"**
**(Belə olduqda), Allah da onu dünya və axirət əzabı ilə yaxaladı.**
**Həqiqətən, bunda (Allah'dan) qorxanlardan ötrü işarə var. (Naziat surəsi, 16-26)**

Ayələrdən göründüyü kimi, hz. Musa fironu Allah'a iman etməyə dəvət etmiş, ancaq o, böyüklənərək Allah'a qarşı üsyan etmişdir. Hz. Musanın bundan sonra üzərində bir məsuliyyət qalmamışdır. Onun vəzifəsi yaxşı işlər görməyi buyurub, pis əməllərə qadağa qoymaqdır.

Ancaq möminlərin təbliği yalnız inkarçıları dinə dəvət etməkdən ibarət deyil. Onlar müsəlmanların da həmişə daha yaxşıya

yönəlmələri, daha gözəl davranışlar göstərmələri və səhvlərindən təmizlənmələri üçün təbliğ edərlər. Mömin qardaşlarına yaxşı işlər görməyi buyurub pis əməllərdən çəkindirərlər. Bir-birlərinin Allah'ın rizasını və cənnətin ən yüksək mövqelərini qazanmalarını istəyərlər.

Bu məqamda kamil iman sahiblərinin əhəmiyyətli bir xüsusiyyətinə diqqət çəkməkdə fayda vardır. Onlar din əxlaqını yalnız sözləri ilə təbliğ etməz, eyni zamanda, bütün həyatları ilə də bu əxlaqı göstərmiş olarlar. Saatlarla dostluğun, səmimiyyətin nə olduğunu izah etməyin əvəzinə, səmimiyyəti yaşayar və bu gözəl əxlaqı rəftarları ilə izah etmiş olarlar. Qarşılarındakı insanlar onların etdiyi bu rəftarla təbliğini gördüklərində səmimiyyətin nə olduğunu heç izah edilmədiyi halda, çox dəqiq bir şəkildə qavraya bilərlər. Bu, Quranda əmr edilən hər cür xüsusiyyət üçün etibarlıdır. Kamil iman sahibi fədakarlığı, təvazökarlığı, bağışlayıcılığı, ədaləti, mərhəməti, dürüstlüyü, qısacası, hər cür gözəl əxlaq xüsusiyyətini ətrafındakı insanlara yaşayaraq göstərər. Qarşı tərəfə əsl təsir edən də budur. Çünki fədakarlığın nə olduğunu uzun-uzadı izah etdiyi halda, bəzən bu rəftarı göstərməkdən çəkinən və hətta bəlkə də eqoist davranan bir kimsə, qarşı tərəfə səmimiyyətsiz olduğu təəssüratını bağışlayar və ona mənfi təsir edər.

Bunun yerinə izah edən və izah etdiyi şeyi bütün səmimiyyəti ilə yaşayan bir insanın qarşı tərəfin vicdanını qəti olaraq hərəkətə keçirəcəyi çox açıqdır.

## Kamil iman sahibinin Allah'a yönəlməsi

**Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən (onlara) yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy, onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər. (Bəqərə surəsi, 186)**

Allah hər yeri əhatə edən, insana şah damarından daha yaxın olan, eşidən və biləndir. Mömin bilir ki, içindən keçən bir düşüncə belə Allah'dan gizli deyil. Səmimi olaraq Allah'dan bir şey istəmək üçün insanın yalnız düşünməsi kifayətdir. Bu düşüncə sinələrdə gizli olsa belə, Allah onu eşidər və səmimi qullarının duasına mütləq cavab verər. Çünki Allah iman edənlərin dostu, qoruyucusu və köməkçisidir.

Qurana görə, dua insanın bütün səmimiyyəti ilə Allah'a yönəlməsi və Onun sonsuz və sərhədsiz gücünə sığınaraq Ondan kömək diləməsidir. Gücü məhdud və sonlu bir varlığın sərhədsiz güclü bir qüdrət qarşısında acizliyini ortaya qoyaraq diləməsidir. Dua adamın Allah'la bilavasitə əlaqəsidir. Ağlından keçirdiyi bütün düşüncələr, istəklər Allah'la adam arasında gizli qalır. Bu səbəbdən, üçüncü bir şəxs tərəfindən bilinməsinə imkan olmayan bu ibadətdə nümayişə yer yoxdur. Tamamilə səmimiyyətə əsaslanan bir ibadətdir.

Allah'ın özlərinə hər kəsdən və hər şeydən daha yaxın olduğunu, bütün duaları eşitdiyini və bütün dualara cavab verdiyini ən dərindən hiss edən və yaşayanlar isə kamil iman sahibləridir. Çünki Allah'a səmimi bir qəlblə yönələrlər və Onun böyüklüyünə qarşı özlərinin insan olaraq nə cür böyük bir acizlik içərisində olduqlarını bilərlər. Və yenə bilərlər ki, dualara cavab verən yalnız Allah'dır və insanı çətinlikdən qurtara bilən də yenə ancaq Odur.

Kamil iman sahibləri yalnız çətin və çarəsiz anlarda deyil, həmişə və hər vəziyyətdə Allah'a yönələrlər. Çünki insanın həyatında Allah'a möhtac olmadığı bir anın belə olmadığını bilirlər. Onlar dua etmək üçün çətinliklə qarşılaşmağı gözləməzlər. Çünki bu ibadətin, eyni zamanda, bir qulluq vəzifəsi və Allah'a yaxınlaşmaq üçün əhəmiyyətli bir yol olduğunun fərqinə varmışlar. Bu da onları digər insanlardan ayıran ən əhəmiyyətli xüsusiyyətlərdən biridir. Ayədə yalnız çarəsizlik və çətinlikdə ikən Allah'a yönələn, ancaq bu çətin-

likdən xilas olduqda dərhal üz çevirənlərin əxlaqı belə ifadə edilmişdir:

**İnsana bəla üz verdikdə uzananda da, oturanda da, ayaq üstə olanda da Bizi çağırar. Bu bəlanı ondan sovuşdurduqda isə sanki ona üz vermiş bəladan ötrü Bizi çağırmamış kimi çıxıb gedər. Həddi aşanlara etdikləri əməllər beləcə gözəl göstərildi. (Yunis surəsi, 12)**

Kamil iman sahibləri isə nemət və rifah içərisində ikən də, çətinliyə düşdüklərində də Rəbbimizə yönələnlərdir. Çünki onlar "**… Əgər yalvarmağınız olmasaydı, Rəbbim sizə diqqət yetirməzdi…** " (Furqan surəsi, 77) ayəsini düşünüb qavrayanlardır.

Onlar dualarını da yenə Allah'ın Quranda təsvir etdiyi şəkildə edərlər. Bir ayədə belə buyurulur:

**Səhər-axşam ürəyində yalvararaq və qorxaraq, səsini qaldırmadan Rəbbini yad et və qafillərdən olma. (Əraf surəsi, 205)**

**Rəbbinizə acizanə, həm də gizlicə dua edin! Şübhəsiz ki, O, həddi aşanları sevmir. (Əraf surəsi, 55)**

Göründüyü kimi, Quranda duanın yalvararaq və için-için edilməsi bildirilir. Çünki Allah duada adamın səmimiyyətini ölçü götürür. Dua etdiyimiz Rəbbimiz bizim içimizdən keçirdiyimizi də, səsli olaraq söylədiyimizi də eşidən, biləndir. Quranın bu əmrinə uyan möminlər də o ankı səmimi rəftarları istiqamətində bəzən içlərindən, bəzən də səsli dua edərlər. Ancaq bu, heç bir zaman ətrafdakı insanlara eşitdirməyə və nümayişə istiqamətli bir dua deyil. Çünki Allah Quranda dini yalnız Allah'a məxsus edərək dua etmənin əhəmiyyətinə belə diqqət çəkmişdir:

**O, (əbədi) yaşayandır, Ondan başqa məbud yoxdur. (Allah'a), dini yalnız Ona məxsus edərək, dua edin. Aləm-**

**lərin Rəbbi olan Allah'a həmd olsun! (Mömin surəsi, 65)**

Möminlərin dualarında diqqət çəkən bir başqa xüsusiyyət də Allah'ın varlığını hiss edərək dua etmələridir. Onlar dua edərkən yalnız istədikləri şeyləri deyil, Allah'ın vahidliyini, böyüklüyünü, sonsuz gücünü düşünərlər. Quranda belə əmr edilmişdir:

**Rəbbinin adını zikr et və özünü tamamilə Ona həsr et! (Müzzəmmil surəsi, 8)**

Kamil iman sahibləri Allah'ı ən gözəl adları ilə düşünərək dua edərlər. Allah'ın adları insanlara Onun xüsusiyyətlərini tanıdar. Allah'ın rəhmli, mərhəmətli, yol göstərici, qullarına qarşı çox şəfqətli olduğunu bilərək Ona səslənən möminlər Allah'ın yaxınlığını və rəhmətini daha çox yaxşı qavrayarlar. Belə ki, Quranda Allah'a müxtəlif adlarla dua edilə biləcəyi belə ifadə edilmişdir:

**Ən gözəl adlar Allah'ındır. Ona bu adlar vasitəsi ilə dua edin və Onun adları barəsində haqdan sapanları tərk edin. Onlar etdikləri əməllərin cəzasını alacaqlar. (Əraf surəsi, 180)**

Hər mövzuda olduğu kimi, əlbəttə, bu mövzuda da inananlar üçün ən gözəl nümunələr peyğəmbərlərə aiddir. Quranda xüsusilə peyğəmbər dualarındakı dərin səmimiyyətə diqqət çəkilmişdir:

**O dedi: "Ey Rəbbim! Məni bağışla və mənə elə bir səltənət ver ki, məndən sonra heç kimə nəsib olmasın. Həqiqətən, Sən bəxşedənsən. (Sad surəsi, 35)**

**(Musa) dedi: "Ey Rəbbim! Məni və qardaşımı bağışla, bizi Öz mərhəmətinə qovuşdur. Sən rəhm edənlərin ən rəhmlisisən!" (Əraf surəsi, 151)**

Möminlər, eyni zamanda, dualarında səbirli olanlardır. Ayədə onlara Allah'dan Səbir etmək və namaz qılmaqla (Bəqərə surəsi, 45)

kömək diləmələri bildirilmişdir. Bu səbir və dayanıqlılıq Allah'a duyduqları etibardan və təslimiyyətdən qaynaqlanır. Mömin Allah'ın dualara qəti olaraq cavab verəcəyindən əmindir və **"... Allah'ın mərhəmətindən ümidinizi üzməyin. Çünki Allah'ın mərhəmətindən ancaq kafir adamlar ümidlərini kəsər"** (Yusif surəsi, 87) ayəsinə əsasən, əsla ümidini itirməz və səbirlə Rəbbimizə yalvarar.

Kamil iman sahiblərinin dua anlayışı belədir: Allah'dan titrəyərək qorxar, ondan hörmət və səbirlə kömək diləyərlər. Bəzən heç kimin fərqində olmadığı bir anda, günün ağıla belə gəlməyəcək vaxtında, düşünmədikləri bir yerdə Allah'a hörmətlə yalvarıb kömək diləyə bilərlər. Onlar gündəlik həyatın ən qarışıq və ən gərgin anlarında belə ürəklərində Allah qorxusu ilə Ona sığınar, Ona yalvarar və Ondan kömək diləyərlər. Və bilərlər ki, bu, onları Allah'a yaxınlaşdıracaq, onlara Rəbbimizin rizasını və cənnətini qazandıracaq ən asan yoldur. Bu yaxınlığın hər an daha da artması üçün önlərində heç bir maneə yoxdur. Allah Quranda qullarından səmimi qəlblə Özünə yönəlmələrini istəyir. Ayələrdə belə buyurulur:

> **Cənnət müttəqilərə yaxınlaşdırılacaq, (onlardan) uzaqda olmayacaqdır. Budur sizə vəd edilən. O, hər bir (Allah'a) üz tutan, (Onun əmrinə) riayət edən, mərhəmətli (Allah'-dan) (Onu) görmədən qorxan və (Allah'a) yönəlmiş qəlblə gələn kimsələr üçündür. (Qaf surəsi, 31-33)**

## Kamil iman sahiblərinin çətin anda göstərdikləri gözəl rəftar

Kamil iman sahiblərinin çətin anda göstərdikləri rəftarlarından əvvəl onların çətinliyi necə qəbul etmələrinə diqqət çəkməkdə fayda vardır. Onlar dünyanın xüsusi olaraq hazırlanmış bir imtahan məkanı olduğunu dərindən qavrayan insanlardır. Və onlar çətinlik anlayışının

da, həqiqətən, iman edənlərlə ürəklərində xəstəlik olanların ayırd edilməsi üçün yaradıldığını bilənlərdir. Çətinlik onların səmimi olduqlarını isbat edə bilmələri baxımından əhəmiyyətli bir imkandır. Bu mənada çətinlik onlar üçün bilinən mənasından tam əks bir anlama, yəni nemətə çevrilir.

Bu sayədə, qarşılarına çıxan hər cür çətinlik qarşısında təvəkküllü davranarlar. Amma, əlbəttə, Allah'a güclərinin yetə biləcəyindən artıq çətinlik yükləməməsi üçün də dua edərlər. Onların bu duası və Allah'ın razılığı belə bildirilir:

**Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər. Hər kəsin qazandığı (xeyir yalnız) onun özünə, qazandığı (şər də yalnız) öz əleyhinədir. "Ey Rəbbimiz, unutsaq və ya xəta etsək, bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır yük yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi daşımağa bizi vadar etmə! Bizi əfv et, bizi bağışla və bizə rəhm et! Sən bizim himayədarımızsan! Kafirləri məğlub etməkdə bizə yardım et!" (Bəqərə surəsi, 286)**

Allah'ın təqdiri ilə bir çətinliklə qarşılaşsalar, bunun gücləri çatdıqları bir sınaq olduğunu anlayar və bu hadisə qarşısında Allah'a olan təslimiyyətlərini və təvəkküllərini ən gözəl şəkildə ortaya qoymağa çalışarlar. Çünki onlar çətinlik anında göstərdikləri rəftarla rifah zamanında göstərdikləri rəftarın Allah qatında məqbul olması baxımından bir olmadığını bilərlər. Allah bu mövzuda belə bir nümunə vermişdir:

**Möminlərdən – üzrlülər istisna olmaqla – (evdə) oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar. Allah öz malları və canları ilə cihad edənləri (evdə) oturanlardan dərəcə etibarilə üstün etdi... (Nisa surəsi, 95)**

Göründüyü kimi, Allah çətin bir mühitdə Onun rizasını axtaranların səy göstərməyənlərdən dərəcə baxımından daha üstün olduqlarını ifadə etmişdir. Çünki burada nümunə göstərilən möminlərin çətin bir mühitdə bütün gücləri ilə din əxlaqına sarılmaları, şübhəsiz ki, onların imanlarının dərəcəsini göstərir. Halbuki, rahat bir mühitdə fədakarlıq edən insanların səmimiyyətlərindən əmin olmaq çətindir. İnsanları bu şəkildə çətinliklərlə sınamaq, Allah'ın doğru söyləyənlərlə yalançıları bir-birlərindən ayırd etməsinin bir yoludur.

Allah'ın möminləri çətinliklə sınamağının bir başqa hikməti də vardır. Çətinliyi dadan insanlar nemətlərin qiymətini çox daha yaxşı anlayır və çox daha şükür edici rəftar göstərirlər. Çünki çətinlik və acının insanın ruhunu yetkinləşdirən bir yönü də vardır. Allah bu şəkildə insanların dünyada yaxşı ilə pisin, bolluq ilə darlığın, rahatlıq ilə çətinliyin müqayisəsini etmələrini təmin edir. İnsanlar ancaq bu müqayisələr sayəsində özlərinə verilən maddi və mənəvi nemətlərin dəyərini anlayırlar. Daha da əhəmiyyətlisi, Allah'a hər mövzuda nə qədər möhtac olduqlarını görür, Onun qarşısındakı acizliklərini qavrayırlar.

İnsanın dünyada nə cür çətinliklərlə sınana biləcəyi isə bir ayədə belə bildirilir:

**Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver. (Bəqərə surəsi, 155)**

Bu ayəni bilən bir mömin çətinliklərlə hələ qarşılaşmadan əvvəl özünü bu vəziyyətə hazırlayar və nə olursa-olsun səbir və təvəkküldə qətiyyət göstərəcəyinə, Rəbbimizə sadiq qalacağına dair Allah'a söz verər. Bu gözəl rəftar onun kamil imanının gərəyidir. Qarşılaşdığı şey qorxu, aclıq, kasıblıq, yaralanma, hətta ölüm belə olsa, Allah'dan razı olmağa və şükür edici rəftar göstərməyə qəti qərarlıdır. Və bilər ki, bütün bunlar onu Allah'a daha da yaxınlaşdıracaq və Onun sonsuz

cənnətində yaşamasına vəsilə olacaq. Bir ayədə belə bildirilmişdir:

**Doğrudan da, Allah möminlərdən cənnət müqabilində onların canlarını və mallarını satın almışdır. (Çünki) onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər. (Bu, Allah'ın) Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir. Allah'dan daha yaxşı əhdini yerinə yetirən kimdir? Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur. (Tövbə surəsi, 111)**

İmani yetkinliyə çatmış mömin bilir ki, cənnət kimi böyük bir mükafat yalnız "iman etdik" deməklə qazanılmaz. Allah bunu Quranda belə bildirmişdir:

**İnsanlar elə güman edirlər ki, təkcə: "İman gətirdik!" – demələri ilə onlardan əl çəkiləcək və onlar imtahan edilməyəcəklər? Biz onlardan öncəkiləri də sınaqdan keçirmişdik. Sözsüz ki, Allah doğru danışanları da, yalançıları da aşkara çıxardacaqdır. (Ənkəbut surəsi, 2-3)**

Yenə bir başqa ayədə Allah bu əhəmiyyətli həqiqətə belə diqqət çəkir:

**Yoxsa sizdən əvvəl gəlib-keçənlərin halı başınıza gəlmədən cənnətə girəcəyinizimi sandınız? Onlara elə bir yoxsulluq, elə dözülməz bir çətinlik çatdı və elə sarsıldılar ki, sonunda elçi bərabərindəki möminlərə: "Allah'ın köməyi nə vaxt?" - deyirdi. Diqqət yetirin, şübhəsiz, Allah'ın köməyi çox yaxındır. (Bəqərə surəsi, 214)**

Bütün bu ayələr göstərir ki, gəlmiş-keçmiş bütün insanlar Allah'ın dünya üçün yaratdığı qanunların bir gərəyi olaraq bu çətinliklərlə qarşılaşmışlar. Onlar da mal və canlarından azaldılaraq sınanmış, onlar da inkar edənlərin təzyiq və zülmləri ilə qarşılaşmış

və aralarındakı möminlərlə səmimiyyətsizlərin fərqi bu şəkildə ortaya çıxmışdır. Bu səbəblə, mömin Quranı öyrəndiyi andan etibarən ayələrdə ifadə edilən bütün bu hadisələrə qarşı hazırlıq görər. Ancaq bilər ki, imtahanın şərtlərinə uyğun olaraq qarşılaşacağı hadisələr peyğəmbər dövründəki şərtlərlə eyni olmaya bilər. Dövrümüzdə bu çətinliklər fərqli şərtlər altında qarşımıza çıxa bilər.

Kamil iman sahibinin imani hazırlığı qarşısına çıxan hadisələri ayırd etmədən hamısının  sınaq olduğunu bilməsini tələb edir. Qarşılaşacağı çətinlik qorxu, aclıq, mallarının azalması və canına gələcək zərər ola biləcəyi kimi, gündəlik həyatda qarşılaşacağı sınaq da ola bilər. Məsələn, bəzən ən çətin görünən şərtlər üst-üstə gələ bilər. İnsan heç gözlənilməz bir zamanda yaxınını itirə bilər. Həmin günlərdə bir tərəfdən də maddi çətinliklə qarşılaşa bilər. Bütün bunların üstünə bir də ağır xəstəliyə tutula bilər. Hətta bu vəziyyəti fürsət bilən şeytan da müxtəlif yollardan vəsvəsə verərək ona yaxınlaşmağa çalışa bilər. Məhz bu zamanda bir mömin ondan kömək istəyə bilər. Kamil iman sahibinin rəftarı hər zaman Allah'ın bəyəndiyi əxlaqa uyğun olar. Bütün çətinlik, yorğunluq və xəstəliklərə baxmayaraq, bu halını qarşı tərəfə heç bir şəkildə hiss etdirməz. Və ona ən gözəl üz ifadəsi ilə, ən rahatladıcı səs tonu ilə və əlindən gələn ən yaxşı rəftarla köməkçi olmağa çalışar.

Kamil iman sahibi olan mömin bütün bu səbir və bu gözəl əxlaqı Allah'a olan sevgisinə, hörmətinə, qorxusuna və Ona olan təslimiyyətinə görə göstərir.

Burada verdiyimiz nümunə bir möminin həyatı boyunca dəfələrlə qarşılaşa biləcəyi hadisələrdən yalnız biridir. Ancaq izah etməyə çalışdığımız budur: nə qədər çox çətinlik üst-üstə gəlirsə-gəlsin, kamil iman sahibi rəftar və danışığında gözəl əxlaqından əsla çəkinməz. Başına gələn hər cür çətinliyin Allah'ın izni ilə başına gəldiyini bildiyindən çarəni və qurtuluşu yenə Allah'dan ümid edər. Onsuz da

dünyada az bir zaman qalıb gedəcək. Əsas olan burada hər vəziyyət və şəraitdə gözəl səbir göstərib Allah'ın istədiyi və bəyəndiyi əxlaqı yaşamaq və Onu razı etməkdir.

Nəticədə, dünya həyatında hər şey gəlib keçicidir. Əhəmiyyətli olan isə insanın bu gəlib-keçən hadisələrlə imtahan verdiyini unutmaması və bu imtahanın nəticəsində də sonsuz həyatın özünü gözlədiyini bilməsidir. Çünki insanların əsl yurdu axirətdir. İnsan dünyada ən böyük acı və çətinliyi yaşasa da, bütün bunlar mütləq keçəcək və ya ölümlə sona çatacaq.

İnsan dünyada bolluq və rifah içində də olsa, bunların heç biri ona aid deyil, ölümü ilə birlikdə hamısı dünyada qalacaq. Və bəlkə də dünyada bolluq içində yaşayan bu insanın sonu cəhənnəm əzabı olacaq. Burada izah edilən də budur: bir insanın dünyadakı həyat şərtləri ölçü deyil, ancaq sınaqdan ibarətdir. Dünyada bəzi çətinliklərlə qarşılaşmış bir insan axirət həyatında, cənnətdə sonsuza qədər xoşbəxtlik və sevinc içində ola bilər. Çünki dünyada ikən hər şərait və mühitdə Allah'ı dost etmiş və Onun məmnuniyyətini qazanmaq üçün səbir etmişdir. Axirətdə bu şəxslərin deyəcəyi söz budur:

**Onlar deyəcəklər: "Qəm-qüssəni bizdən uzaq edən Allah'a həmd olsun! Həqiqətən, Rəbbimiz bağışlayandır, şükürün əvəzini verəndir. Öz lütfü ilə bizi əbədi iqamətgahda yerləşdirən Odur. Orada bizə nə bir yorğunluq üz verəcək, nə də bir üzgünlük toxunacaqdır!" (Fatir surəsi 34-35)**

## Kamil iman sahibinin nemət verildiyində göstərdiyi rəftar

İnsanların çoxuna çətinlikdən sonra nemət veriləndə ayədəki ifadə ilə desək, öyünüb sevinərlər. Bu nemətin özlərinə kim

tərəfindən verildiyini unudub dərhal üz çevirərlər. Halbuki, Allah Quranda "... Öyünmə! Həqiqətən, Allah öyünənləri sevmir" (Qəsəs surəsi, 76) şəklində buyurmuşdur.

Əsl iman sahibləri özlərinə verilən nemətlərdən qürurlanmayan və bütün bunların Rəbbimizdən olduğunu bilənlərdir. Onlar çətin zamanda olduğu kimi, nemət və rifah içində olarkən də Allah'a möhtac olduqlarını və Allah'ın dilədiyi anda onlardan neməti ala biləcəyini, özlərini acizlik içərisində buraxa biləcəyini unutmazlar. Buna görə, darlıqda da, bolluqda da, çətinlikdə də, rahatlıqda da hər zaman Allah'a şükür edərlər.

Onlar qarşılarına çıxacaq çətin bir günün əzabından qorxarlar. Çünki Allah'ın verdiyi nemətlərə nankorluq edənləri cəzalandıracağını bilirlər. Nankorluq edənlərin cəzalandırılacağı bir ayədə belə xəbər verilmişdir:

**Nankorluqlarına görə onları belə cəzalandırdıq. Məgər biz nankordan başqasını cəzalandırarıqmı? (Səba surəsi, 17)**

Onlar verilən nemətlərin də eynilə çətinliklər kimi dünya həyatı üçün hazırlanan xüsusi imtahanın bir parçası olduğunu bilirlər. Quranda hz. Süleymanın bu həqiqəti belə ifadə etdiyi bildirilir:

**... "Bu, Rəbbimin lütfündəndir ki, məni sınağa çəksin, görək şükür edəcəyəm, yoxsa nankor olacağam! Kim şükür etsə, ancaq öz xeyrinə şükür etmiş olar, kim də nankor olsa, (bilsin ki), həqiqətən, Rəbbim (onun şükrünə) möhtac deyildir, səxavətlidir!" (Nəml surəsi, 40)**

Məhz kamil iman sahibi olan möminin nemət qarşısında göstərdiyi rəftar da eynilə belədir. Bunun sınaq olduğunu dərhal düşünərək Allah'a sığınar və Ona şükür edər. Bundan sonra əlinə keçən bu imkanlarla Allah'ın əmrlərini və digər ibadətləri nöqsansız yerinə yetirər.

Ancaq bunu da unutmaq olmaz ki, insanlara verilən nemətlər yalnız maddi dəyərlərlə məhdudlaşmır. İnsanın imanı, gözəlliyi, ağlı, qabiliyyətləri, sağlamlığı kimi mövzular da möminlərin şükür etməsini tələb edən böyük nemətlərdir. Bir ayədə **"O, sizə istədiyiniz hər şeydən vermişdir. Əgər Allah'ın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz...."** (İbrahim surəsi, 34) şəklində bildirilərək Allah'ın qulları üzərindəki sonsuz nemətinə diqqət çəkilmişdir.

Quran və peyğəmbərlərin həyatına baxdığımızda çox zəngin və ya çox güclü olmalarına baxmayaraq, onların üstün əxlaq göstərdikləri, ədalətdən əsla vaz keçmədikləri və Allah'a qarşı təvazökarlıqlarını qoruduqları görünür. Allah iman edən qullarının bu üstün xüsusiyyətlərini Quranın bu ayəsi ilə tərifləyir:

> **Əgər onlara yer üzündə hökmranlıq versək, onlar namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin aqibəti Allah'a aiddir. (Həcc surəsi, 41)**

# KAMİL İMAN SAHİBLƏRİNİN GÖZƏL HƏYATI

**Həqiqətən də: “Rəbbimiz Allah’dır!”– deyib sonra düz yol tutanlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar cənnət əhlidirlər və etdikləri əməllərin əvəzi olaraq orada əbədi qalacaqlar. (Əhqaf surəsi, 13-14)**

Möminlər iman edər və sonra doğru yön tutub imanlarında qətiyyət göstərərlər.

Onlar Rəbbimizdən gələn hər şeydə xeyir olduğunu bilər, hər zaman şükür edər və Ona qəlbən bağlanaraq təslimiyyət göstərərlər.

Onlar Allah qatında təqva sahibləridir.

Allah onların bu səmimi yaxınlıqlarına əvəz olaraq həm dünyada, həm də axirətdə yaxşılıq vəd etmişdir. Daha da əhəmiyyətlisi, onları rəhməti ilə əhatə etmiş, onlardan razı olmuş və onlara sevgisini və məmnuniyyətini yönəltmişdir. Bu, Quranda belə müjdələnmişdir:

**... Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. (Allah) onlar üçün (ağacları) altından çaylar axan, içində əbədi qalacaqları cənnət bağları hazırlamışdır. Bu, böyük uğurdur. (Tövbə surəsi, 100)**

Onlar dünyaya həvəslə bağlanmaz, Allah’ın rizasını və cənnətini

qazanmaq üçün axirətə yönələrlər. Allah onların bu dərin təslimiyyətlərinə əvəz olaraq onlara cənnətlə bərabər dünya həyatının nemətlərini də artırar:

**Beləliklə, Allah onlara həm dünya mükafatını, həm də gözəl axirət mükafatını verdi. Allah yaxşı iş görənləri sevir. (Ali-İmran surəsi, 148)**

**... Bu dünyada xeyirli işlər görənlər üçün gözəl mükafat hazırlanmışdır. Axirət yurdu isə daha xeyirlidir. Müttəqilərin yurdu necə də gözəldir. (Nəhl surəsi, 30)**

**Dünya həyatında da, axirətdə də onlara müjdə vardır. Allah'ın kəlmələri əsla dəyişilməz. Bu, böyük uğurdur. (Yunis surəsi, 64)**

Onlar dünyada qarşılaşdıqları bütün çətinliklərə səbir edər və başlarına gələn çətinlik nə olursa-olsun, Allah'dan başqa dostları, köməkçiləri və vəliləri olmadığını unutmazlar.

Onlar ancaq Ona sığınıb, ancaq Ondan kömək diləyərlər.

Rəbbimiz olan Allah onları rəhməti ilə əhatə edər və onları qoruyar. Hər hadisəni onların lehinə çevirər və onların yollarını açar, onlara asanlıq verər. Daha da əhəmiyyətlisi, Allah'ın dostları olmaları səbəbi ilə onları yer üzündə mütləq qalib edər, onlara zəfər verər və onları dünyanın və cənnətin varisləri edər:

**Musa öz qövmünə dedi: "Allah'dan kömək diləyin və səbir edin. Şübhəsiz ki, yer üzü Allah'ındır. O, qullarından dilədiyini onun varisləri təyin edir. (Gözəl) aqibət müttəqilərindir". (Əraf surəsi, 128)**

**Onlar deyəcəklər: "Bizə verdiyi vədini yerinə yetirən və bizi bu yerə varis edən Allah'a həmd olsun! Biz cənnətin istədiyimiz yerində sakin oluruq. (Yaxşı) əməl sahiblərinin mükafatı necə də gözəldir!" (Zumər surəsi, 74)**

Onlar Rəbbimizin rəhmətinə qovuşmağı qəlbən arzu edən, Onun heybətindən titrəyərək qorxanlardır.

Onlar Allah'a qəlbən bağlı olaraq yalvaranlardır.

Onlar özlərini xilas etməsi, cəhənnəm əzabından qoruması və cənnəti nəsib etməsi üçün Allah'a acizliklə və ürəkdən yalvaranlardır. Rəbbimiz də onların bu səmimi yalvarışlarına cavab verər və onları sonsuza qədər rəhməti altında yaşayacaqları cənnətlərə yerləşdirər:

**Allah'dan qorxanlar isə təhlükəsiz bir yerdə – bağçalarda və çeşmələr başında olacaqlar! Taftadan və atlazdan libaslar geyib qarşı-qarşıya əyləşəcəklər. Bax belə! Üstəlik, onları iri qaragözlü hurilərlə də evləndirəcəyik. Onlar orada əmin-amanlıq içində hər meyvədən istəyəcəklər. Onlar orada ilk ölümdən başqa heç bir ölüm dadmayacaqlar. (Allah) onları cəhənnəm əzabından qorumuşdur – sənin Rəbbinin lütfkarlığı sayəsində. Məhz bu, böyük uğurdur. (Duxan surəsi, 51-57)**

**Həqiqətən də cənnət əhli həmin gün nemətlər işində kef çəkəcək. Onlar zövcələri ilə birlikdə kölgəliklərdə taxtlara söykənəcəklər. Orada onlar üçün meyvələr və istədikləri hər şey vardır. Üstəlik, rəhmli Rəbb (onlara): "Salam", - deyəcək. (Yasin surəsi, 55-58)**

Məhz onlar Allah'ın rizasını qazanan kamil iman sahibləridir.

# QURANDA KAMİL İMANDAN NÜMUNƏLƏR

**Allah'ın Elçisi sizlərə – Allah'a və axirət gününə ümidini bağlayanlara və Allah'ı çox zikr edənlərə gözəl nümunədir. (Əhzab surəsi, 21)**

Allah hər şeyin açıq-aşkar bir dillə izah edildiyi və heç bir mövzunun nöqsan buraxılmadığı bir kitab göndərərək imani bir yetkinliyə necə çata biləcəyimizi, necə düşünəcəyimizi, necə yaşayacağımızı və nələri hədəf götürəcəyimizi bizə bildirmişdir. Bununla yanaşı, Allah nümunə olaraq peyğəmbərlər göndərmiş və onların vasitəsilə insanlara həyatda imani yetkinliyin necə yaşandığını göstərmişdir. Onlara yaxşılığı əmr edib pislikdən çəkindirməyi fərz edərək insanlara kamil imanı yaşamaqda köməkçi olmalarını təmin etmişdir. Ayrıca, Allah Quranda keçmişdə yaşayan peyğəmbərlərdən xəbər verib onların üstün əxlaqından nümunələr göstərmişdir ki, iman sahibləri bundan nümunə götürsünlər.

Kitabın əvvəlində də açıqladığımız kimi, insanın imanının və Allah qorxusunun qarşısında sərhəd qoyulmamışdır. İstəyən şəxs hər zaman Rəbbimizə bir yol tapa bilər və Ona hər kəsdən daha yaxın ola bilər. Bu səbəblə, kamil iman sahibləri üçün peyğəmbərlərin və

Quranda nümunə göstərilən saleh möminlərin imanı və əxlaqı əhəmiyyətli bir hədəfdir. Ancaq bu da onlar üçün son sərhəd deyil. Allah Quranda **“Nə qədər bacarırsınızsa, Allah’dan qorxun. (Peyğəmbərə) qulaq asıb itaət edin...”** (Təğabun surəsi, 16) ayəsi ilə möminlərin təqvada heç bir sərhəd tanımamalarını buyurmuşdur.

Bu səbəblə, hər möminin hədəfi Allah’ın ən sevimli və Ona ən yaxın qulu ola bilməkdir.

Məhz bu hissədə belə şərəfli və üstün axtarışda olan hər kəsə Allah’ın Quranda peyğəmbərlərdən və digər kamil iman sahiblərindən verdiyi nümunələri yenə xatırladacağıq və imani yetkinliyi qavramanın yollarını ortaya qoyacağıq.

## Hz. Yusif

Quranda bildirilən hekayələrin birində Allah hz. Yusifin uşaqlığından etibarən müəyyən hikmətlə hazırlanmış sınaqlardan keçdiyini və onun bütün bu hadisələrə qarşı ən yetkin, ən təslimiyyətli rəftar göstərdiyini xəbər verir. Şərtlər nə qədər ağır, qurulan tələlər nə qədər çətin görünsə də, hz. Yusif imanından, Allah’a olan bağlılığından, etibarından və təslimiyyətindən vaz keçməmiş, əksinə, Allah’a daha da yaxınlaşaraq Ona qarşı tam təslimiyyətli  əxlaq göstərmişdir.

Allah’a yaxınlaşmaqda yol axtaranlar üçün hz. Yusifin həyatında, həqiqətən də çox bənzərsiz, çox üstün iman və əxlaq nümunələri vardır. Qurandan hz. Yusifə dair ilk öyrəndiyimiz məlumat onun hələ kiçik yaşlarda vacib bir yuxu gördüyü və atası hz. Yaqubun bu yuxu haqqında etdiyi şərhlə əlaqəlidir:

**Bir zaman Yusif atasına dedi: “Atacan! Mən (yuxuda) on bir ulduz, günəş və ay gördüm. Onların mənə baş əydiyini də gördüm”. O dedi: “Oğlum! Yuxunu qardaşlarına danışma, yoxsa sənə hiylə qurarlar. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir. Beləcə, Rəbbin səni seçəcək,**

**sənə yuxuları yozmağı öyrədəcək və Öz nemətini bundan əvvəl ataların İbrahimə və İshaqa tamamladığı kimi, sənə və Yaqub nəslinə də tamamlayacaqdır. Şübhəsiz ki, Rəbbin biləndir, müdrikdir”. (Yusif surəsi, 4-6)**

Atası hz. Yusifin gördüyü bu yuxunun Allah’dan bir işarə olduğunu və onun gələcəkdə Allah qatında üstün şəxs olacağını düşünərək bu yuxunu heç kimə izah etməməsini söyləmişdir. Daha sonra atalarının hz. Yusifə olan düşkünlüyünün çox olduğunu hiss edən qardaşları atalarının bu sevgisini qısqanaraq qardaşlarına tələ qurmuşlar. Onu öldürməyə və beləcə, atalarının sevgisini özlərinə yönəltməyə çalışmışlar:

**Sözsüz ki, Yusif və onun qardaşlarının (hekayətində) soruşanlar üçün ibrətlər vardır. Bir vaxt (qardaşları) dedilər: “Biz bütöv bir dəstə olmağımıza baxmayaraq, Yusif və onun qardaşı atamıza bizdən daha sevimlidir. Aydın görünür ki, atamız aşkar bir yanlışlıq içindədir. Yusifi ya öldürün, ya da onu bir yerə aparıb atın ki, atanız ancaq sizə məhəbbət bəsləsin və bundan sonra siz əməlisalehlərdən olarsınız”. Onlardan biri dedi: “Yusifi öldürməyin! Əgər nə isə etmək istəyirsinizsə, onda onu bir quyuya atın ki, karvanlardan biri onu götürsün!” (Yusif surəsi, 7-10)**

Qardaşları hz. Yusifi dərin bir quyuya atmış və atalarına da onu bir qurdun parçaladığını söyləyərək üzərinə yalandan qan sürdükləri köynəyini gətirmişlər. Söylədikləri bu yalana baxmayaraq, hz. Yaqub bu hadisənin bir qurmadan ibarət olduğunu anlamış və Allah’a sığınaraq Ondan kömək istəmişdir. Hər hadisəni bir qədər (tale) və hikmətlə yaradan Allah’ın diləməsi ilə quyunun olduğu yerdən keçən bir karvan hz. Yusifi tapmış və onu əsir olaraq Misirdə bir vəzirə satmışdır:

**... Beləliklə, Yusifi yer üzündə yerləşdirdik və ona yuxuları yozmağı öyrətdik. Allah Öz işini qələbə ilə başa çatdırandır. Lakin insanların çoxu bilmir. (Yusif) yetkin çağına çatdıqda Biz ona mühakimə yürütmək (bacarığı) və elm verdik. Biz yaxşı iş görənləri belə mükafatlandırırıq. (Yusif surəsi, 21-22)**

Onu satın alan vəzirin arvadı heyrətamiz bir gözəlliyə sahib olan hz. Yusifə yaxınlaşmaq istəmiş və bu istəyi qəbul edilməyincə hz. Yusifə böhtan ataraq özünü təmizə çıxarmaq istəmişdir:

**Evində qaldığı qadın onu yoldan çıxartmaq istədi və qapıları bağlayıb: "Yanıma gəl!"– dedi. O isə: "Allah uzaq eləsin! Axı (sənin ərin) mənim ağamdır, mənə yaxşı baxmışdır. Şübhəsiz ki, zalımlar nicat tapmazlar!"– dedi. (Yusif surəsi, 23)**

**Onlar bir-birini qabaqlamaq məqsədilə qapıya tərəf yüyürdülər və qadın onun köynəyini arxadan cırdı. İkisi də qapının yanında qadının əri ilə rastlaşdı. (Qadın) dedi: "Sənin ailənə pislik etmək istəyənin cəzası zindana salınmaqdan və ya ağrılı-acılı bir əzaba düçar edilməkdən başqa nə ola bilər?!" (Yusif) dedi: "O, məni yoldan çıxartmaq istəyirdi"... (Yusif surəsi, 25-26)**

**(Qadının əri) onun köynəyinin arxadan cırıldığını gördükdə dedi: "Şübhəsiz ki, bu, sizin hiylələrinizdəndir. Həqiqətən də, sizin hiyləniz böyükdür. Yusif, sən bundan (bu işi açıb danışmaqdan) vaz keç! Sən də günahına görə bağışlanma dilə. Çünki sən günah işlətmisən". (Yusif surəsi, 28-29)**

Ancaq köynəyin arxadan cırıldığı aydın olduğu və hz. Yusifin günahsızlığı çox açıq şəkildə göründüyü halda belə, onu zindana at-

maqdan imtina etməmişlər. Hz. Yusif isə qarşılaşdığı bütün hadisələrdə olduğu kimi, düşdüyü vəziyyətdən Allah'a sığınmış və özünə çıxış yolu göstərməsi üçün Ona təslim olmuşdur. Allah onun bu duasını qəbul etmiş və qadının hiyləsini ondan uzaqlaşdırmışdır:

**"... (Qadın) dedi: "Barəsində məni qınadığınız, bax, budur! Mən onu yoldan çıxartmağa çalışdım, o isə imtina etdi. Əgər əmrimi yerinə yetirməsə, əlbəttə ki, zindana atılacaq və zəlillərdən olacaqdır". (Yusif) dedi: "Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən daha xoşdur. Əgər bu qadınların hiyləsini məndən uzaq etməsən, mən onlara meyil edər və cahillərdən olaram". Rəbbi onun duasını qəbul etdi və onların hiyləsini ondan uzaq etdi. Həqiqətən, O, eşidəndir, biləndir. Dəlilləri gördükdən sonra, yenə də onu bir müddət zindana salmaq qərarına gəldilər. (Yusif surəsi, 32-35)**

**... və o, zindanda bir neçə il də qaldı. (Yusif surəsi, 42)**

Qardaşlarının ona qurduğu tələ ilə başlayan və böhtan atılması ilə davam edən bu hadisələr Yusif peyğəmbərin uzun illər boyu zindanda qalması ilə davam etmişdir. Ancaq bu müddət boyunca o, bir an belə ümidsizliyə qapılmamış, Allah'dan ümidlə kömək diləmiş, bütün bu hadisələrin xeyirlə yaradıldığını bilmiş, səbrində və imanında qətiyyət göstərmişdir. Belə ki, illər sonra hökmdar gördüyü bir yuxunun yozumunu soruşduğunda hz. Yusifi zindandan tanıyan və onun yuxuları yozduğunu bilən bir kimsə bu vəziyyəti hökmdara xəbər vermişdir. Hz. Yusifdən yuxusunun ən doğru şərhini öyrənən hökmdar onu çağırtdırmışdır. Lakin peyğəmbər hökmdarın əvvəl vəzirin arvadını və əllərini kəsən qadınları çağırdıb keçmişdə yaşanan bu hadisənin əslini onlardan öyrənməsini istəmişdir. Onlar da

belə cavab vermişlər:

**...Onlar dedilər: "Allah bizdən uzaq eləsin! Biz onun haqqında pis bir şey bilmirik". Zadəgan kişinin isə arvadı dedi: "İndi haqq bəlli oldu. Onu mən yoldan çıxartmaq istəyirdim. Həqiqətən də, o, doğru danışanlardandır. (Yusif surəsi, 51)**

Onların bu etiraflarından sonra hz. Yusif bu şərhi etmişdir:

**Bu, ona görədir ki, əri yanında olmadıqda ona xəyanət etmədiyimi və Allah'ın xainlərin hiylələrinə yol vermədiyini bilsin. Mən özümə bəraət qazandırmıram. Çünki Rəbbimin rəhm etdiyi kəs istisna olmaqla, nəfs pis işləri əmr edər. Həqiqətən, Rəbbim bağışlayandır, rəhmlidir". (Yusif surəsi, 52-53)**

Yusif peyğəmbərin bu sözləri onun necə imani yetkinliyə və necə üstün əxlaqa sahib olduğunu çox açıq şəkildə ortaya qoymuşdur. O, ən başdan bəri Allah'ın köməyinin mütləq iman və səbir edənlərlə birlikdə olduğunu və Ona xəyanət edənlərin hiylələrinin mütləq boşa çıxardığını bilir. Allah'a duyduğu güvən, qədərə olan təslimiyyətindən və təvəkkülündən aydın olur. Şərtlər nə qədər əleyhinə kimi görünsə də, əslində, bütün bunların arxasında Allah'ın yaxın olduğunu çox yaxşı görür.

Yusif peyğəmbərin üstün əxlaqında diqqət çəkən əhəmiyyətli bir xüsusiyyət də onun haqlı olduğu vəziyyətlərdə belə nəfsinə arxa çıxmaması, ona əsla güvənməməsi və onun Allah'ın diləməsindən başqa mütləq pisliyi əmr edən qüvvə olduğunu çox yaxşı bilir. Bu, ancaq kamil iman sahiblərinin yaşaya biləcəyi bir əxlaqdır. Çünki nəfs şeytanın üsullarına sığınaraq insana hiylə ilə yaxınlaşır və vicdanının səsini dinləməyən insanlara etdiklərini gözəl göstərərək onları pisliyə yönəldir.

Hz. Yusifin nəfsinə qarşı mövqeyi isə onun imani yetkinliyinin rəftarlarına əks olunmasıdır. Şübhə yoxdur ki, Allah'a belə güvənən və təslim olan bir insanın sonu da mütləq xeyir olar. Necə ki, onun həyatı boyunca göstərdiyi bu təslimiyyətin əvəzinə Allah ona dünyada güc və iqtidar vermişdir. Ayrıca, ona dünyada gözəl həyat vermiş və axirətdə də yaxşılıqlarının əvəzini verməklə cənnətlə müjdələmişdir:

**Beləliklə, Yusifə yer üzündə hökmranlıq verdik. O, istədiyi yerdə qala bilərdi. Biz istədiyimizə mərhəmətimizi nəsib edirik və yaxşı iş görənlərin mükafatını əsirgəmirik. İman gətirənlər və müttəqi olanlar üçün, əlbəttə, axirət mükafatı daha xeyirlidir. (Yusif surəsi, 56-57)**

## Hz. Süleyman

Allah Hz. Süleymanın səmimi imanını Quranda belə bildirir:

**Biz Davuda Süleymanı bəxş etdik. O, necə də gözəl qul idi! Daima (Allah'a) üz tutardı. (Sad surəsi, 30)**

Hz Süleymanın Quranda izah edilən ən əhəmiyyətli xüsusiyyətlərindən biri güc, iqtidar və ehtişama sahib olması idi. Ona Allah qatından bir çox üstün qabiliyyətlər verilmişdi. Hz. Süleyman özünə verilən bu nemətlər üçün daim Allah'a şükür və dua etməklə Ona yönəlmişdi. Allah hz. Süleymanın dualarından birini Quranda belə bildirir:

**"... "Ey Rəbbim! Mənə həm mənim özümə, həm də valideynlərimə əta etdiyin nemətə şükür etmək üçün, Sənin razı qalacağın yaxşı əməl etmək üçün ilham ver və məni öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!" (Nəml surəsi, 19)**

Hz. Süleymanın səmimi bir duası da belədir:

**O dedi: "Ey Rəbbim! Məni bağışla və mənə elə bir səltənət ver ki, məndən sonra heç kimə nəsib olmasın. Həqiqətən, Sən bəxşedənsən. (Sad surəsi, 35)**

Allah bu duasına görə, hz. Süleymana dünyada xüsusi bir qabiliyyət, zənginlik və elmdə üstünlük verdiyi kimi, onu axirətdə də ən gözəl şəkildə mükafatlandıracağını vəd etmişdir. Allah Quranda hz. Süleyman üçün belə bildirmişdir:

**Həqiqətən, o, Bizə yaxın olanlardandır və onun üçün gözəl qayıdış yeri hazırlanmışdır. (Sad surəsi, 40)**

Hz. Süleymanın belə üstün və seçilmiş bir mövqeyə layiq edilməsi, əlbəttə, əlində olan maddi imkanları Allah rizası üçün istifadə etməsinə görədir. Bu imkanlar onun Allah'a yaxınlığının daha da artmasına, Allah'ı xatırlamasına vəsilə olmuşdur. Onun: **"... Mən gözəlliyi Rəbbimin zikrindən dolayı sevirəm..."** (Sad surəsi, 32) - dediyi bir ayədə bildirilmişdir. Nemətlər və imkanlar nə qədər çox olursa-olsun, bunlardan ötrü təkəbbürlük etməmək və lovğalanmadan yalnız Allah'a yönəlmək ancaq kamil iman sahiblərinə xas olan əxlaqdır. Allah hz. Süleymanın bu əxlaqını bütün insanlara nümunə olaraq bildirmişdir.

## Fironun zövcəsi

Fironun zövcəsi Misirdə İsrail oğullarına rəhbərlik edən fironla evlidir. Tarixə dünyanın ən zalım insanlarından biri olaraq düşən fironun evli olduğu bu insan ondan tamamilə fərqli əxlaqa malikdir. Quranda tarixin ən qiymətli və ən saleh müsəlmanlarından biri olaraq zikr edilmişdir. Allah'ın təqdir etdiyi qədərdə bir imtahan olaraq dünyanın ən zalım insanlarından biri ilə ən yaxşı insanlarından biri eyni evdə yaşamışdır.

Bu qiymətli insanın sahib olduğu kamil iman Quranda qiyamətə qədər yaşayacaq müsəlmanlara nümunə verilmişdir:

**Allah iman gətirənlərə isə fironun zövcəsini misal çəkdi.... (Təhrim surəsi, 11)**

Allah'ın iman edənlərə fironun zövcəsini nümunə göstərməsinin səbəbi bu üstün əxlaqlı insanın tarixdə az rast gəlinən bir təhlükə altında ikən, çox  çətin şərtlərdə iman etməsidir. Eyni zamanda, cahiliyyə insanlarının tam əksinə, dünyada bəlkə də çox az insanın sahib olduğu bir mülkdən təsirlənməyərək güclü bir xarakterlə Allah'a dərindən bağlanmasıdır.

O dövrdə Misir xalqı fironun ilahi gücə sahib olduğuna inanırdı. Firon Misir xalqının bu inancından istifadə edərək özünü ilah elan etməyə cürət etmişdi. Fironun zövcəsi də belə təhlükəli bir mühitdə, bu dərəcə zalım bir insanla eyni evi paylaşarkən Allah'a iman etmişdir. Allah'ın varlığını və o günə qədər Misirə hakim olan inancların hamısının batil olduğunu təsdiqləmişdir. Şübhəsiz, bu, dünyada çox az insanın nəzərə alacağı və ancaq Allah'a qəlbən bağlanmaqla mümkün olan bir həyat şəklidir. Əlbəttə, böyük səbir tələb edən bir sınaqdır. Bu çətinlikdən təsirlənmədən yaşamaq üçün iradəli, ağıllı, romantiklikdən uzaq çox güclü bir iman lazımdır. Məhz fironun zövcəsi də belə bir əxlaqa və kamil imana sahib olması səbəbi ilə ağıllı davranmış və özünü sezdirmədən fironun sarayında gizlicə iman edən mömin bir qadın olaraq yaşamışdır. O, aləmlərin qadınlarına nümunə verilməklə şərəfləndirilmişdir:

**Allah iman gətirənlərə isə fironun zövcəsini misal çəkdi. O zaman o: "Ey Rəbbim! Mənə Öz yanında – cənnətdə bir ev tik. Məni firondan və onun əməlindən xilas et. Məni zalım adamlardan qurtar!"– demişdi. (Təhrim surəsi, 11)**

Fironun zövcəsi böyük bir zənginliyin içində olmasına baxmayaraq, dünyəvi həvəslərə qapılmamış, yalnız Allah üçün yaşayacağı həyatı seçmiş, Allah'ın məmnuniyyətini, rizasını hər şeydən üstün tutmuşdur. Buna görə də Allah'a boyun əyməsi, təvəkkülü, üstün səbri və yetkinliyi ilə peyğəmbər olmadığı halda, bütün insanlara nümunə olaraq Quranda zikr edilmiş qiymətli müsəlman bir qadındır.

## Sehrbazların İmanı

Hz. Musa firona Allah'ın varlığını açıqlayıb sonra da Allah'ın möcüzələrini göstərdiyində firon qürurlanmış və əslində, hz. Musanı hörmətdən salmağı planladığı üçün onu ən çox güvəndiyi sehrbazları ilə qarşı-qarşıya gətirə biləcəyi bir yarışma təşkil etmişdi. Firon İsrail oğullarının hz. Musadan təsirləndiyini və ona inanmağa başladığını sezdiyi üçün hz. Musanın göstərdiyi möcüzələri xalqa bir sehrbaz hiyləsi olaraq göstərməyi məqsəd qoymuşdu. Firon Misir xalqının Allah'a iman etməsindən və batil dinlərini tərk etməsindən narahat idi. Yeganə məqsədi öz sistemini davam etdirməsi olduğundan, ədalətli adı verilmiş hiyləli bir oyunla sistemini qoruyacağını və hətta möhkəmlədəcəyini zənn etmişdi.

Təyin olunan gün gəldiyində hz. Musa və sehrbazlar xalqın toplandığı bir meydanda qarşı-qarşıya gəldilər. Sehrbazlar güclərini göstərmək üçün əsalarını atdılar. Etdikləri sehrin təsiri ilə əsalar insanlara qaçan kimi göründü. Hz. Musa isə əsasını atınca Allah'ın izni ilə əsa sehrbazların qurduğu oyunu uddu. Hadisələr Quranda belə izah edilir:

**(Sehrbazlar) dedilər: "Ey Musa! Ya sən at, ya da biz ataq!" (Musa) dedi: "Siz atın!" Onlar atdıqda, insanların gözlərini sehrləyib canlarına qorxu saldılar və böyük bir sehr göstərdilər. Biz Musaya: "Əsanı at!"– deyə vəhy etdik. Elə bu an (əsa ilana çevrilib) onların düzəltdikləri**

**şeyləri uddu. Artıq haqq üzə çıxdı, onların etdikləri isə batil oldu. (Sehrbazlar) orada məğlub oldular və rüsvay olaraq geri döndülər. (Əraf surəsi, 115-119)**

Bunun üçün hz. Musanın həqiqəti söylədiyini anlayan sehrbazlar Allah'a iman etdilər:

**Sehrbazlar səcdəyə qapandılar və dedilər: "Biz iman gətirdik aləmlərin Rəbbinə – Musanın və Harunun Rəbbinə!" (Şüəra surəsi, 46-48)**

Hz. Musanın sehrbazların etdiklərini etibarsız etməsi və sehrbazların da onun üstünlüyünü qəbul edərək iman etməsi firon üçün böyük bir uduzma idi. Buna görə də fironun reaksiyası çox sərt oldu. Çünki həm xalqının gözü qarşısında alçalmış, həm əhəmiyyətli gücünü itirmiş, həm də öz sisteminə qarşı böyük təhlükə gördüyü hz. Musa qalibiyyət əldə etmişdi. Nəticə olaraq, iman edən sehrbazlara çox ağır cəza verəcəyinə qərar verdi:

**(Firon) dedi: "Mən sizə izn verməmişdən əvvəl siz Ona iman gətirdiniz? Şübhəsiz ki, O, sizə sehr öyrədən böyüyünüzdür. Mən sizin əllərinizi və ayaqlarınızı çarpaz kəsdirib xurma ağaclarının gövdələrində çarmıxa çəkəcəyəm. Onda hansımızın əzabının daha şiddətli və daha sürəkli olduğunu biləcəksiniz!" (Taha surəsi, 71)**

Sehrbazlar isə fironun zorbalığını bilmələrinə və bu ağır təhdidlərə baxmayaraq, Allah'ın varlığını anladıqları an iman etmişlər və səcdəyə qapanmışlar. Heç bir bəhanə uydurmadan, mənfəət güdmədən firona qarşı hz. Musanın tərəfinə keçərək onu dəstəkləmişlər. Hz. Musaya qarşı çıxdıqlarına və ona qarşı mübarizə apardıqlarına görə də Allah'dan üzr istəmişlər:

**Onlar dedilər: "Biz heç vaxt səni bizə gələn bu aydın dəlillərdən və bizi yaradandan üstün tutmayacağıq. İndi nə**

**hökm verəcəksənsə, ver. Sən ancaq bu dünyada hökm verə bilərsən! Həqiqətən, biz Rəbbimizə iman gətirdik ki, O, bizi günahlarımıza və sənin bizi məcbur etdirdiyin sehrə görə bağışlasın. Allah'ın (mükafatı) daha xeyirli, (cəzası) isə daha daimidir!" (Taha surəsi, 72-73)**

Məhz burada qeyd-şərtsiz Allah'a təslim olmanın ilk andan insana qazandırdığı şəxsiyyət, güc və qətiyyət başqa sözlə desək, imani yetkinlik nəzərə çarpır. Əgər sehrbazlar fironun nizamına görə mənfəət güdməyə cəhd etsəydilər, əsla belə bir rəftar göstərə bilməzdilər. Çünki görünüşcə yaşadıqları mövcud mühitdə iman etmələri dünyəvi mənfəətləri ilə zidd düşürdü.

Ancaq əlbəttə, Allah'ın varlığına iman edən bir insan üçün bütün bu təhlükələr geridə qalır. Çünki Allah bütün bu sayılan hadisələrə hökm edən, hər şeydən üstün olan gücdür. Kamil imanda Allah'a müəyyən şərtlərə bağlı olaraq qul olunmaz. Çünki əsl iman heç bir şərtə bağlı olmayan imandır. Sehrbazların göstərdikləri də Allah'a və dinə səmimi yaxınlaşan, heç bir şərtə bağlı olmayan kamil bir imandır.

## Bağ sahibi

Allah hz. Muhəmmədə (s.ə.v) iki adamın arasında baş verən bir hadisəni vəhy etmişdir. Beləcə, əsrlər əvvəl yaşayan bu iki adamın nümunəsi qiyamətə qədər bütün insanlara çatmışdır:

**Onlara iki kişinin (əhvalatını) misal çək. Bunların birinə iki üzüm bağı verib onları xurmalıqlarla əhatə etdik və aralarında əkin saldıq.**

**Hər iki bağ öz barını verdi və bu bardan heç bir şey əskilmədi. Biz də onların arasından bir çay axıtdıq.**

**Onun (başqa) sərvəti də var idi... (Kəhf surəsi, 32-34)**

Bu şəxslərdən birinin göstərdiyi xarakter Quranda ibrət götürüləcək xarakter kimi keçərkən, digərinin etidallı rəftarı da kamil iman nümunəsi meydana gətirmişdir.

Mal baxımından varlı olan adam özündən son dərəcə əmin halda təkəbbürlük göstərir və bu da zənginlikdən qaynaqlanır. Bağçasının məhsuldar olması və görünüşünün gözəlliyi onun özünə olan arxayınlığının əsas dayağıdır. Sırf yanındakı adamdan daha zəngin və güclü olduğunu düşündüyü üçün normal şərtlərdə edə bilmədiyi təkəbbür və əzəmətə haqq qazandırmışdır:

**... O öz (mömin) yoldaşı ilə söhbət edərkən ona: "Mən sərvət baxımından səndən daha zəngin və adamlarıma görə səndən daha qüvvətliyəm!"– dedi. (Kəhf surəsi, 34)**

Bu adam bağının gözəlliyini və bərəkətini gördüyündə güclü olmaq üçün Allah'a və Onun dininə ehtiyacı olmadığını düşünmüş və özündən son dərəcə əmin halda və ağılsız bir üslubdan istifadə etmişdir:

**O, özünə zülm edərək bağına daxil olub dedi: "Bunun nə vaxtsa yox ola biləcəyini düşünmürəm. O saatın gələcəyini də zənn etmirəm. Rəbbimin dərgahına qaytarılmalı olsam, sözsüz ki, bundan daha firavan bir həyat qismətim olacaq!" (Kəhf surəsi, 35-36)**

Allah'ın ayədə də diqqət çəkdiyi kimi, bağ sahibi bağına demək olar ki, sonsuzluq ətf etmiş və heç bir gücün onu yox edə bilməyəcəyini düşündüyünü də açıq şəkildə dilə gətirmişdir. Halbuki, bu dünyagörüşünün özünə necə son hazırladığının fərqinə vara bilməmişdir.

Allah bu adamla yanaşı, başqa bir bağ sahibindən bəhs edir. Bu adam da mülk sahibidir və zəngindir, ancaq digəri qədər deyil... Lakin sahib olduğu zənginlik inancına və xarakterinə təsir etməmişdir. Bu səbəblə, yoldaşının üzərindəki inkarı görərək ona bu şəkildə cavab vermişdir:

**... "Səni torpaqdan, sonra nütfədən yaratmış, daha sonra səni kişi qiyafəsinə salmış (Rəbbini) inkarmı edirsən? Lakin Allah mənim Rəbbimdir və mən heç kəsi Rəbbimə şərik qoşmaram! Bağına girdiyin zaman: "MaşaAllah! Qüvvət yalnız Allah'a məxsusdur!" - deməli deyildinmi? Əgər var-dövlətcə və övladca məni özündən kasıb sayırsansa. (Kəhf surəsi, 37-39)**

Ayənin davamında yoldaşının malından ötrü azğınlaşmasını dərhal xəbərdar etməsi və Allah'ın verdiyi malla Allah'a qarşı böyüklənməməyi nəsihət etməsi bildirilmişdir:

**Ola bilsin ki, Rəbbim mənə sənin bağından daha yaxşısını versin, (sənin bağına) isə göydən bir bəla göndərsin və o, hamar bir yerə dönsün. Yaxud suyu çəkilib getsin və bir də onu axtarıb tapa bilməyəsən!" Beləcə, onun məhsulu bir anda məhv edildi. O, ora qoyduğu xərcə görə (peşmançılıq çəkməyə) və əllərini bir-birinə vurmağa başladı. Bağın talvarları belə darmadağın olub yerə yıxılmışdı. O dedi: "Kaş Rəbbimə heç kəsi şərik qoşmayaydım!" Allah'dan başqa ona yardım edə biləcək dostlar yox idi və o da öz-özünə kömək edə bilməzdi. Belə hallarda kömək etmək ancaq haqq olan Allah'a məxsusdur. Ən yaxşı mükafat verən və ən gözəl aqibət nəsib edən Odur. (Kəhf surəsi, 40-44)**

Etidallı bağ sahibinin göstərdiyi əxlaq Allah'ın bəyəndiyi əxlaq modelidir. Sahib olduğu məntiq hadisələrə dünyagörüşü və üslubu kamil imana dair əlamətlərdir. Bu səbəbdən, Allah Peyğəmbərimizə (s.ə.v) bu hadisəni bütün möminlərə nümunə olaraq izah etməsini əmr etmişdir. Digər bağ sahibinin göstərdiyi pis əxlaq isə kamil iman sahibinin əxlaqındakı üstünlüyün belə bir müqayisə ilə ortaya çıxmasına vəsilə olmuşdur.

# NƏTİCƏ

Kitabın əvvəlindən bu yana yalnız “iman etdik” deməyin, ya da din əxlaqına bir ucundan ibadət etməyin kifayət etməyəcəyini, Allah’ın məqbul gördüyü modelin yarışıb önə keçmək, təqva sahibi möminlərə nümunə olmaq, hər an üstün bir əxlaq göstərmək olduğunu izah etməyə çalışdıq. Möminləri Allah’dan gücləri yetdiyi qədər qorxmağa, özlərini əsla yetərli görməməyə və hər an Allah rizasını axtarmağa, vicdanlarından son həddə qədər istifadə etməyə çağırdıq.

Ancaq burada əhəmiyyətli olan bir mövzu yenə vardır. Kamil iman sahibi olmaq uzun sürən səy nəticəsində əldə ediləcək bir şey deyil. Allah bir ayədə **“Səni ən asan olana müvəffəq edərik”** (Əla surəsi, 8) şəklində bildirmişdir. İnsan kamil mənada bir imana qısa bir müddətdə çata bilər. O günə qədər necə həyat sürməyindən asılı olmayaraq, bu bir anlıq qərarı ilə həyatının qalan hissəsini Allah’ın məmnun olacağı şəkildə keçirə bilər. Dinin təqdim etdiyi gözəl əxlaqı nöqsansız şəkildə yaşaya bilər.

Bütün bunları açıq şəkildə ifadə etdikdən sonra indi də hər kəsi bu mövzuda tələsik davranmağa və təxirə salmamağa çağırırıq. Çünki insana verilən müddət qısadır. İnsan bu dünyada, bəlkə, bir göz qırpımında və ya gündüzün ancaq bir saatı qədər bir müddət həyat sürəcək. Bu vəziyyətdə ona verilən bu məhdud müddət ərzində zamanla yarışmalı və gözəl davranışlar göstərməyə çalışmalı, kamil imanı yaşamağa tələsməlidir. Allah bu müddətin sonunda təqvada davamlılıq göstərən, yarışıb önə keçən, Özünə yaxınlaşmaqda

tələsən qullarına cənnəti vəd etmişdir. Orada onlar peyğəmbərlər, sadiqlər, şəhidlər və salehlərlə birlikdə olacaqlar və hər şeydən əhəmiyyətlisi, Rəbbimizə qovuşacaqlar. Allah orada onlara bir də salam olduğunu müjdələyir ki, möminlər üçün bu, ən gözəl mükafatlardan biridir:

**Həqiqətən də, cənnət əhli həmin gün nemətlər içində kef çəkəcək. Onlar zövcələri ilə birlikdə kölgəliklərdə taxtlara söykənəcəklər. Orada onlar üçün meyvələr və istədikləri hər şey vardır. Üstəlik, rəhmli Rəbb (onlara): “Salam”, - deyəcək. (Yasin surəsi, 55-58)**

**Allah’a və Elçisinə itaət edənlər Allah’ın onlara nemət olaraq bəxş etdiyi peyğəmbərlərlə, sidq ürəkdən inananlarla, şəhidlərlə və əməlisalehlərlə birlikdə olacaqlar. Onlar necə də gözəl dostlardır. Bu lütf Allah’dandır. Bilən olaraq Allah kifayət edər. (Nisa surəsi, 69-70)**

Gəlin siz də bu mükafatı əldə etmək, Allah’ın rizasını qazanmaq və cənnətlərdə peyğəmbərlərlə və kamil iman sahibi möminlərlə yerləşmək üçün tələsin.

Kamil imanı ən gözəl şəkildə yaşayaraq bütün müsəlmanlara ayələrdə ifadə edildiyi kimi, təqvada öndər və nümunə olun. Allah Quranda qurtuluş tapmaq istəyən bütün insanları bu əxlaqı yaşamağa dəvət edir:

Onlara Rəbbinin ayələri xatırlandığı zaman o ayələrə qarşı kar və kor kimi davranmazlar.

**Onlar deyərlər: “Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı olan zövcələr və övladlar bəxş et və bizi müttəqilərə imam et!” Onlar səbir etdiklərinə görə (cənnətdə olan) otaqla mükafatlandırılacaq, orada xeyir-dua ilə, salamla qarşılanacaqlar. Onlar orada əbədi qalacaqlar. O, nə gözəl məskən, necə də gözəl iqamətgahdır! (Furqan surəsi, 73-76)**

# QURANDA KAMİL İMAN SAHİBLƏRİ

Kamil iman sahiblərinin Quranda bildirilən xüsusiyyətlərindən bəziləri belədir:

- **“Onlar iman gətirmiş və (Allah’dan) qorxmuşlar. (Yunis surəsi, 63)**
- **“…İmanlarına zülm qatışdırmayanlar…” (Ənam surəsi, 82)**
- **“…Ondan qorxur və Allah’dan başqa heç kəsdən qorxmurdular…” (Əhzab surəsi, 39)**
- **“…Onun qorxusundan tir-tir əsirlər” (Ənbiya surəsi, 28)**
- **“…“Rəbbimiz Allah’dır!”– deyib sonra düz yol tutanlar…” (Əhqaf surəsi, 13)**
- **“...“Allah bizə yetər. O, nə gözəl qoruyandır!”– dedilər”. (Ali-İmran surəsi, 173)**
- **“…Allah anıldığı zaman qəlbi qorxuya düşər…” (Həcc surəsi, 35)**
- **“…Rəbbindən qorxur və pis haqq-hesabdan çəkinirlər”. (Rəd surəsi, 21)**
- **“…Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar…” (Nur surəsi, 55)**
- **“…Özlərinə nazil edilənə iman gətirir, Allah’ın ayələrini ucuz**

**qiymətə satmırlar…" (Ali-İmran surəsi, 199)**
- **"Çünki onlar öz Rəbbi ilə qarşılaşacaqlarını və Ona qayıdacaqlarını yəqin bilirlər". (Bəqərə surəsi, 46)**
- **"O kəslər ki, haqq-hesab gününü təsdiq edirlər". (Məaric surəsi, 26)**
- **"Qeybə iman gətirir…" (Bəqərə surəsi, 3)**
- **"…(Gələcək) o saatdan lərzəyə gəlirlər..." (Ənbiya surəsi, 49)**
- **"O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir…" (Bəqərə surəsi, 4)**
- **"…Axirətə də yəqinliklə inanırlar". (Bəqərə surəsi, 4)**
- **"Kitabdan möhkəm yapışanlar..." (Əraf surəsi, 170)**
- **"…Namaz qılır…" (Bəqərə surəsi, 3)**
- **"O kəslər ki, namazlarında mütidirlər". (Muminun surəsi, 2)**
- **"O kəslər ki, namazlarını öz vaxtlarında qılırlar". (Muminun surəsi, 9)**
- **"O kəslər ki, namazlarını həmişə qılırlar". (Məaric surəsi, 23)**
- **"…Qorxu və ümid içində öz Rəbbinə yalvarır". (Səcdə surəsi, 16)**
- **"...Ancaq Rəbbinə təvəkkül edənlərdir". (Nəhl surəsi, 42)**
- **"Ayıb yerlərini (zinadan) qoruyub saxlayarlar". (Muminun surəsi, 5)**
- **"O kəslərdir ki, zəkat verirlər". (Muminun surəsi, 4)**
- **"Mallarını gecə və gündüz, gizli və aşkar xərcləyənlər…" (Bəqərə surəsi, 274)**
- **"O kəslər ki, Rəbbinin üzünü diləyərək səbir edir…" (Rəd surəsi, 22)**
- **"O kəslər ki, Allah'a verdikləri sözü yerinə yetirir və əhdi pozmurlar". (Rəd surəsi, 20)**
- **"O kəslər ki, əmanəti danmır və əhdlərini pozmurlar".**

**(Məaric surəsi, 32)**

- **"Onlar Allah'ın risalətini təbliğ edir…" (Əhzab surəsi, 39)**
- **"…Pisliyi yaxşılıqla dəf edirlər…" (Rəd surəsi, 22)**
- **"…Yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur… " (Tövbə surəsi, 71)**
- **"O kəslər ki, şahidliklərində mətindirlər". (Məaric surəsi, 33)**
- **"…Müti olan…" (Ali-İmran surəsi, 17)**
- **"…Sübh çağına yaxın bağışlanma diləyən kimsələrdir". (Ali-İmran surəsi, 17)**
- **"…Onlar bilə-bilə etdiklərinə görə israr etməzlər." (Ali-İmran surəsi, 135)**
- **"O kəslərdir ki, sözbazlıqdan qaçırlar" (Muminun surəsi, 3)**
- **"…İşləri barədə öz aralarında məsləhətləşir…" (Şura surəsi, 38)**
- **"O kəslər üçün ki, haqsızlığa məruz qaldıqda intiqam alırlar". (Şura surəsi, 39)**
- **"…Doğru danışan…" (Ali-İmran surəsi, 17)**
- **"…Gələnə səbir edər…" (Həcc surəsi, 35)**
- **"…Allah'dan lütf və razılıq diləyən..." (Fəth surəsi, 29)**
- **"O kəslər ki: "Ey Rəbbimiz! Həqiqətən, biz iman gətirdik, bizim günahlarımızı bağışla və bizi od əzabından qoru!"– deyirlər". (Ali-İmran surəsi, 16)**
- **"Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər". (Muminun surəsi, 61)**
- **"…Əlamətləri isə üzlərində olan səcdə izidir…" (Fəth surəsi, 29)**
- **"…İman gətirib yaxşı işlər görənlər məxluqların ən yaxşısıdırlar". (Beyyinə surəsi, 7)**
- **"Cənnət bağlarında hörmət göstəriləcək insanlar da elə onlar olacaqdır". (Məaric surəsi, 35)**

# KAMİL İMAN SAHİBİ OLAN MÖMİN...

**Nə cür Allah inancına malikdir?**

- Allah'dan başqa bir ilah olmadığını,
- Hər şeyi yaradanın ancaq Allah olduğunu,
- Hər işi idarə edənin Allah olduğunu,
- Bütün ürəklərin ancaq Allah'ın idarəsində olduğunu,
- Allah'ın hər şeyi əhatə etdiyini,
- Qədəri (taleyi) təyin etdiyini,
- Hər şeyə gücü yetən və dilədiyini edən olduğunu,
- Hər şeydən xəbərdar olduğunu və hər şeyi eşidib gördüyünü,
- Hər şeyin üzərində qoruyucu olduğunu,
- Qeybi bildiyini,
- Heç bir şeyə ehtiyacı olmadığını və bütün nöqsanlardan uzaq olduğunu,
- Doğmamış və doğulmamış olduğunu,
- Yanılmayan və unutmayan olduğunu,
- Mülkün yeganə sahibi olduğunu,
- Hər şeyin tək varisi olduğunu,
- Daim diri olduğunu,
- İzzət və şərəfin tək sahibi olduğunu,
- Daim üstün və qalib olduğunu,
- Ən gözəl adların sahibi olduğunu,

- Hökm və hikmət sahibi olduğunu,
- Qullarına şah damarlarından daha yaxın olduğunu,
- Ürəklərindən keçirdikləri ən kiçik şeyi də bildiyini,
- Gizlinin gizlisini bildiyini,
- Sonsuz ədalətli olduğunu,
- Mərhəmətlilərin ən mərhəmətlisi olduğunu,
- Qullarına qarşı çox bağışlayıcı olduğunu,
- Qullarını çox sevən olduğunu,
- Tövbələri qəbul edən olduğunu,
- Səmimi duaya cavab verən olduğunu,
- Yaxşılığın və şükürün əvəzini artıqlaması ilə verən olduğunu,
- İnsana hər şeyi öyrədən olduğunu,
- Xəbərdar edib qorxudan olduğunu,
- Ölüləri dirildən və hesab gününü yaradan olduğunu,
- Dininə kömək edənlərə dünyada və axirətdə kömək edən olduğunu,
- Vədinin haqq olduğunu,
- İnkarçılar üçün cəhənnəmi və möminlər üçün də cənnəti yaradan olduğunu bilən bir Allah inancına malikdir.

## Nə cür Allah qorxusuna malikdir?

- Yalnız Allah'dan qorxar və yalnız Ondan çəkinər
- Allah'dan başqa heç bir şeydən qorxmaz.
- Allah'dan gücü yetdiyi qədər çox qorxar.
- İmanı və Allah qorxusunu ürəyə yerləşdirənin Allah olduğunu bilər.
- Bu qorxunu yalnız çətinlik və çarəsizlik anlarında deyil, hər an yaşayar.
- Allah'ın qəlblərdə olanı və gizlinin gizlisini bilən olduğunu unutmaz.

- Kimsənin görmədiyi yerdə də Allah'ın görən olduğunu hər an xatırlayar.
- Hesab verəcəyini bilərək hərəkət edər.
- Haram və halallara diqqət edər.
- Etdiyi hər şeyin əsası bu qorxu üzərinə quruludur.
- Edilən hər işdə Allah'a yönələr.
- Tək cəzalandıranın Allah olduğunu bilər.
- Allah'ın mövqeyindən, təhdidindən və cəhənnəm əzabından qorxar.
- Daha əvvəl gəlib-keçənlərə Allah'ın verdiyi əzabları unutmaz.
- Hörmət dolu, içi titrəyən və şiddətli bir Allah qorxusuna malikdir.

## Necə bir imana malikdir?

- Allah qorxusuna və Allah sevgisinə əsaslanan.
- Yalnız Allah'a ibadət etdirən.
- Allah'ı hər şeydən üstün tutmağı təmin edən.
- Allah'dan başqa ilah axtarmayan.
- Allah'a heç bir şeyi ortaq qoşmayan.
- Hər şeyin Allah'dan olduğunu bilən.
- Allah'ın həmişə onun yanında olub etdiklərini gördüyünü bilən.
- Həyatının hər anında Allah'ın razılığını qazanmağı hədəf alan.
- Bütün həyatı Allah üçün yaşamağı gərəkdirən.
- Allah'ın sərhədlərini qorumağı təmin edən.
- Allah'ın qarşısında acizliyini çox yaxşı bilməyi təmin edən.
- Allah'ın ayələrinə qəlbən boyun əyməyi təmin edən.
- Yalnız Allah'a güvənməyi təmin edən.
- Köməyin ancaq Allah'dan olduğunu qavramağı təmin edən.
- Daim Allah'ı xatırlamağı təmin edən.
- Qurana bağlı olmağı təmin edən.
- Allah'a əsla nankorluq etdirməyən.

- Qiyamət gününə qəti bilgi ilə iman etdirən.
- Axirətin varlığına qəti olaraq inandıran.
- Dünya həyatına aldanmağa mane olan.
- Gələcək narahatlığını ortadan qaldıran.
- Hər işdə bir xeyir olduğunu hər an hiss etdirən.
- Hər işdə Allah'a yönəlməyi təmin edən.
- Sahib olunan bütün xüsusiyyətlərin Allah'dan olduğunu unutdur mayan.
- Allah'a, hökmlərinə və elçilərinə könüldən itaəti təmin edən.
- Şeytanın təsirinə izn verməyən.
- Hər an vicdanın səsi ilə hərəkət etməyi təmin edən.
- Yalnız Allah'a yönəlmiş bir ruh halı verən.
- Yalnız Allah'ı və inananları dost etməyi təmin edən.
- Allah'a yaxınlaşmaq üçün ciddi səy göstərən.
- Allah'a hər an şükür edici olmağı təmin edən.
- Gizli və açıq zəkat verməyi unutdurmayan.
- Hər çətinliyə səbir edəcək və qətiyyən qorxmayacaq bir qətiyyət verən.
- Üstün əxlaq qazandıran.
- Göstərilən mömin əlamətlərində qətiyyət təmin edən.
- Təqvada yarışıb önə keçirən bir imana malikdir.

## Necə bir qədər (tale) anlayışına malikdir?

- Hər şeyin bir qədər ilə yaradıldığını.
- Doğumdan ölümə qədər hər hadisəni Allah'ın xüsusi olaraq plan ladığını.
- Hər hadisənin ancaq Allah'ın təqdir etdiyi zamanda reallaşacağını,
- Allah'a qarşı qəlbən tam güvənərək bağlanmalı olduğunu.
- Könüldən boyun əyməyin məqbul olduğunu.
- Allah'ın bütün zamanları bir an içində gördüyünü.
- Yalnız Allah'a təslim olmanın lazımlılığını.

- Nə edirsə-etsin, nəticəni Allah’ın təyin edəcəyini.
- Allah’a tam bir təslimiyyət göstərdiyi təqdirdə əsla qəmgin olmayacağını.
- Allah’ın yaratdığı hər görüntüdən razı olmalı olduğunu bilər.
- Başına gələn hər şeyin Allah’dan olduğunu bildiyi üçün:
  - həyəcana qapılmaz.
  - kədər və ya çətinliyə düşməz.
  - çaxnaşmaya qapılmaz.
  - ümidsizliyə düşməz.
  - çətinlik və əsəb keçirməz.
  - narahat olmaz.
  - qəzəblənməz.
  - ”Kaş ki”, - deməz.
  - ani və həddindən artıq reaksiyalar verməz.
  - ölüm qarşısında kədərlənməz.
  - əlindən gedənə və başına gələnə kədərlənməz.

## Hansı düşüncəyə və nə cür ağıla malikdir?

- Quranı gərəyi kimi, yaxşıca düşünən.
- Hər şeyi Quran məntiqi ilə qiymətləndirən.
- Hər şeyi müsbət düşünən.
- Vicdanın istiqamətləndirdiyi şəkildə hərəkət edən.
- Hər şeyi qədərdə (taledə) Allah’ın təqdir etdiyi şəkildə meydana gəldiyini bilərək düşünən.
- Hər hadisənin ardında gizlənən xeyir və hikməti görməyə çalışan.
- Ayaq üstə, oturarkən, yatarkən, hər an daim Allah’ı düşünən.
- Allah’ın varlığını və yaratmasındakı sənətini dərindən düşünən.
- Allah’ın diqqət çəkdiyi mövzuları və iman həqiqətlərini araşdırıb, düşünən.
- Suallarının cavablarını yalnız Qurandan tapan.

- Axsamalar qarşısında həlli həmişə Quranda axtaran.
- Daim dinin lehinə düşünən.
- Vəsvəsə gəldiyində şeytandan olduğunu düşünüb Allah'a sığınan.
- Möminlər haqqında hüsnü-zənlə düşünən.
- Başqalarının ehtiyaclarını düşünə bilən.
- Təcili işləri təsbit edib onlara üstünlük verə bilən.
- Haqq ilə batil arasında Qurana uyğun müqayisə edə bilən.
- Təmiz bir ağıl ilə düşünə bilən.
- Öz yaradılışını düşünən.
- Qiyaməti düşünən.
- Hesab gününü düşünən.
- Cənnəti və xüsusilə də cəhənnəmi düşünüb öyüd alan.
- Özünə verilən öyüdləri yaxşıca düşünən.
- Öz nəfsini hesaba çəkə bilən ağıl və düşüncəyə malikdir.

## Hansı sevgi anlayışına malikdir?

- Allah'ı hər kəsdən və hər şeydən çox sevər,
- Peyğəmbərimizə (s.ə.v) duyduğu sevgi bütün inananlara duyduğu sevgidən üstündür.
- Möminlərə olan sevgisi Allah'ın rizasına əsaslanan bir sevgidir.
- Ən çox sevdiyi insanlar Allah'ın rizasını qazanmağa ən çox səy göstərən, ən təqvalı olduğunu ümid etdiyi şəxslərdir.
- Dünya həyatının bəzəklərinə şiddətlə sevgi hiss etməz.
- İşlədiyi xeyirlərin əvəzində Allah'ın sevgisindən başqa heç bir mükafat istəməz.
- Allah'a və elçisinə qarşı baş qaldıranlara qarşı əsla sevgi duymaz.
- Bir şeyə qarşı duyduğu sevgi və ehtiyac o mövzuda fədakarlıq göstərməsinə mane olmaz.

## Necə və nə haqda danışar?

- Allah'ı ən gözəl adları ilə təsbih edər.

- Sözün ən gözəlini söyləyər.
- Gələcəkdə olacaq bir hadisə üçün hər zaman "Allah diləsə" mənasındakı "inşaAllah" sözündən istifadə edər.
- Allah'ın sənətini əks etdirən hər gözəlliyi gördüyündə: "maşaAllah", - deyərək Allah'ın şanını ucaldar.
- Allah'ın məmnun olacağını ümid etdiyi sözü söyləyər.
- Danışıqlarında ayələri xatırladaraq danışar.
- Hikmətli danışar.
- Qısa, mənalı və aydın danışar.
- Boş və faydasız söhbətlər etməz.
- Ehtiyaca uyğun danışar.
- Yalan söz söyləməz.
- Ana və atasına qarşı "uf" belə deməyəcək qədər hörmətli danışar.
- Yumşaq söz söyləyər.
- Danışığı ilə qarşı tərəfə etibarlı olduğunu hiss etdirər.
- Bacardığı qədər səmimi, sadə, içindən gəldiyi kimi danışar.
- Gizli söhbətlərdən çəkinər.
- Söylədiyi sözün nə məna verəcəyini bilərək və yaxşı düşünərək danışar.
- Öyüd verərək danışar.
- Bir evə girdiyində əvvəl Quranda ifadə edildiyi kimi "salam" sözünü söyləyər.
- Cahillərlə qarşılaşdığında onlarla cəhalətlə danışmaz, "Salam", - deyərək keçər.
- Böhtan atmaz.
- Və bu cür söhbətlərə qatılmayıb şərəflə keçər.
- Yaxşı və gözəl rəftarları təşviq edəcək və pis davranışlardan çəkindirəcək şəkildə danışar.
- Səsində orta yol tutar, qışqıraraq danışmaz.
- Ağzından çıxan hər sözdən məsul olduğunu bilər.

- Boş və gərəksiz məqsədlər üçün and içməz.
- Danışığında heç kimi ayıblayıb, pisləməz.
- Dedi-qodu etməz.
- Vicdanı hərəkətə keçirəcək təsirli sözlər söyləyər.

**Necə və nələrə dua edər?**

- Hər şeydə Allah'a yönələrək.
- Yalnız Allah'a dua edərək və yalnız Ondan kömək diləyərək.
- Allah'ın hər duaya cavab verdiyini bilərək.
- Allah'ın ona şah damarından daha yaxın olduğunu və hər düşündüyünü anında eşitdiyini bilərək.
- Allah'ı ən gözəl adları ilə təsbih edərək və bu adlarının mənalarını dərin-dərin düşünərək.
- Dua edərkən Allah'dan istəyinə sərhəd qoymayaraq.
- Duanın bir şəkli olmadığını, Allah'ın rizasını qazanmaq üçün edilən hər hərəkətin bir dua olduğunu bilərək.
- Dua etmək üçün xüsusi bir məkan və yerə gərək olmadığını, hər zaman, hər yerdə dua edə biləcəyini bilərək.
- Allah'a qarşı ola biləcək ən hörmətli şəkildə dua edər.
- Yalnız çətinlik və ehtiyac içində olarkən deyil, bolluq və nemət içərisində olarkən də dua edər.
- Dualarından sonra verilən nemətlərə nankorluq etməz.
- Duası səmimi və içdəndir.
- Allah'a yalvara-yalvara, için-için dua edər.
- Nümayiş üçün dua etməz.
- Qorxu və ümidlə dua edər.
- Özü üçün olduğu qədər, hətta özündən daha çox peyğəmbərlər və digər möminlər üçün də dua edər.
- Möminlərin sağlamlığı, təhlükəsizliyi, rahatlığı, zənginliyi və gücü üçün dua edər.

- Allah'a yaxınlaşmaq, müvəffəqiyyətli olmaq, din əxlaqını ən yaxşı şəkildə yaşaya bilmək və gözəl əxlaqda səbir göstərə bilmək üçün dua edər.
- Dünyada və axirətdə Allah'ın ən gözəlini verməsi, nemətlərini artırması üçün dua edər.
- Heç kimin möminlərə zərər verə bilməməsi üçün dua edər.
- Düşmənlərinin xor və alçaq qılınmaları və etdiklərinin əvəzini görmələri üçün dua edər.
- Quranda yer verilən peyğəmbər dualarını özünə nümunə götürər.
- Dualarının sonunda: "Həmd olsun aləmlərin Rəbbi Allah'a!" (Yunis surəsi, 10) - deyərək Allah'ı təsbih edər.

# ƏLAVƏ BÖLMƏ
# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və

etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

1- Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

2- Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

3- Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında  həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir  müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki

qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

> "Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

> "Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən

1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

> "Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız

maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı  riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-

birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

> "Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən

təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

> “Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların

zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin

"Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

> "Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

> "Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və

ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". *(Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)*

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə

müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "Australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus* > *homo habilis* > *homo erectus* > *homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dün-

yanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

> "Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər

şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

> "Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə,

bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül

nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi

olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi öl-

çülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

### Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qav-

rayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri

altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah “Hicr” surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: “Gözümüz bağlanmış, biz sehrlənmişik”, - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) “Siz atın”, - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü

sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən**
**başqa bizdə heç bir bilik yoxdur!**
**Həqiqətən, Sən Bilənsən,**
**Müdriksən! (Bəqərə surəsi, 32)**